30 iyun 2021 №48 (1825)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Müzəffər ordunun, qalib xalqın bayramı

Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu sözləri iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə söyləyib.

səh. 2

# Dünya kinosuna inteqrasiya üçün vacib addım

## Azərbaycan Film Komissiyasının təqdimat mərasimi keçirildi

İyunun 28-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyi tərəfindən təsis edilən Azərbaycan Film Komissiyasının ("Filming Azerbaijan") təqdimat mərasimi keçirildi.

Mərasimdən öncə Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov "Lenfilm" Kinostudiyasının baş direktoru Fyodor Şerbakovun rəhbərlik etdiyi Rusiya nümayəndə heyəti ilə görüş keçirdi.

Görüşdə Rusiya ilə mədəniyyət sahəsində ikitərəfli münasibətlərin inkişafı, kino sahəsində təcrübə mübadiləsi, mövcud əlaqələrin genişləndirilməsi, birgə layihələrin icrası ilə bağlı fikir mübadiləsi aparıldı, sahənin gələcək inkişaf perspektivləri müzakirə olundu.

Azərbaycan Film Komissiyasının təqdimat mərasimində dövlət qurumları və Bakıdakı diplomatik missiyaların nümayəndələri, ölkəmizdən, eləcə də Türkiyə, Ukrayna, Avstriya, Serbiya və Rusiyadan kino mütəxəssisləri iştirak edirdi.

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov hər kəsi salamladı, xarici ölkələrdən təşrif buyuran qonaqlara təşəkkürünü bildirdi. Qeyd etdi ki, Azərbaycan Film Komissiyası beynəlxalq və yerli peşəkar icmalara ölkəmizi çəkiliş məkanı kimi kəşf etməyə imkan verəcək. Məqsədimiz ölkənin bu sahədə potensialını ortaya qoymaqdır.

Vurğulandı ki, bu gün Azərbaycan azad etdiyi torpaqlarda quruculuq işləri aparır. Prezident İlham Əliyevin tapşırığına əsasən, Mədəniyyət Nazirliyi də bu bərpa və quruculuq prosesində iştirak edir. Artıq mədəniyyətin bu torpaqlara qaytarılması prosesinə başlanılıb.




Anar Kərimov ölkə Prezidentinin tapşırığına əsasən, Mədəniyyət Nazirliyində islahatlara başlanıldığını da diqqətə çatdırdı: "Dövlət başçısının mədəniyyət haqqında tövsiyələrini rəhbər tutaraq islahatlara start vermişik. Bu gün mədəniyyət sahəsi müstəqilliyimizin təzahürü və eyni zamanda iqtisadiyyata töhfə verən bir sahə kimi formalaşmalıdır. İslahatlar prosesində kino sahəsi də prioritet təşkil edir. Ölkəmizdə kino işinin təkmilləşməsi, dünya bazarında Azərbaycanın rəqabətini artırmaq üçün Kino Agentliyinin yaradılması nəzərdə tutulur".

davamı səh. 2-də

## Paytaxtda "Marriott" brendinin yeni hoteli

Paytaxtımızda "Courtyard by Marriott Baku" hotelinin açılışı olub. Yeni hotel Bakının Füzuli küçəsində, "Qış parkı"nın yanında yerləşir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım hoteldə yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, "Courtyard by Marriott Baku" hotelində 365 otaq, iclas, idman zalları, restoran yaradılıb. Bu cür müasir hotel kompleksinin istifadəyə verilməsi ölkəmizdə qeyri-neft sektorunun inkişafına töhfə olmaqla yanaşı, hotel biznesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradır.

"Courtyard by Marriott Baku" Avropada və dünyada xüsusi imicə malik hotellər şəbəkəsi tərəfindən inşa edilib. Son illər Azərbaycanda dünya brendlərinə məxsus hotellərin istifadəyə verilməsi ölkəmizdə əlverişli investisiya mühitinin olduğunu, bölgənin iqtisadi mərkəzi sayılan Azərbaycanın turizm sahəsində də qabaqcıl sıralarda qərarlaşdığını göstərir.

Turizm infrastrukturunun inkişafı ilə bağlı həyata keçirilən davamlı tədbirlər, o cümlədən müasir mehmanxanaların istifadəyə verilməsi Azərbaycanda postpandemiya mərhələsinə daha uğurlu keçidi təmin etməkdə böyük rol oynayır.

## "Gördüyümüz vandalizm dünya mədəniyyət tarixinə bir zülm dövrü kimi düşəcək"

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircanın rəhbərlik etdiyi nümayəndə heyəti və Rusiyadan gələn kino mütəxəssisləri iyunun 27-də Ağdam şəhərinə səfər edərək ermənilərin otuz ilə yaxın sürən işğal dövründə burada törətdikləri vandalizmin nəticələri ilə tanış olublar. Qonaqları Azərbaycan Mədəniyyət Nazirliyinin məsul əməkdaşları müşayiət edib.



Qonaqlara əvvəlcə bu yaxınlarda (28 may) Azərbaycan Prezidenti tərəfindən Ağdam şəhərinin bərpasının təməlinin qoyulduğu ərazidə olublar. Burada onlara şəhərin tarixi, işğal dövründə törədilən dağıntılar, eləcə də həyata keçiriləcək quruculuq işləri barədə məlumat verilib.

Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində xarabalıqlar qalıb.

davamı səh. 4-də

## Qəzəl-romans müsabiqəsinin qalibləri mükafatlandırıldı

İyunun 29-da Azərbaycan Bəstəkarlar İttifaqının konsert salonunda qurumun "Nizami Gəncəvi İli"ndə elan etdiyi qəzəl-romans janrında müsabiqənin qalibləri mükafatlandırıldı.

Bildirildi ki, müsabiqədə peşəkar, qocaman bəstəkarlarla bərabər gənc bəstəkarlar da iştirak edib. Müsabiqəyə çox maraqlı əsərlər təqdim olunub.

səh. 3

## Ordu-xalq birliyinin ekran təcəssümü

İyunun 26-da – Azərbaycan Silahlı Qüvvələri Günündə Heydər Əliyev Sarayında "Biz" tarixi-sənədli filminin təqdimat mərasimi keçirildi. Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzinin C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası ilə birgə istehsal etdiyi ekran əsəri Azərbaycan Ordusunun Vətən müharibəsində şanlı Zəfərinə həsr olunub.

Filmin premyerasında Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircanın başçılıq etdiyi nümayəndə heyəti, Müdafiə Nazirliyinin müxtəlif qoşun növlərini təmsil edən hərbçilər, Türkiyə, Rusiya və Avropanın kino mütəxəssisləri iştirak edirdilər.

İlk olaraq torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.



Tədbiri giriş sözü ilə açan mədəniyyət naziri Anar Kərimov Silahlı Qüvvələr Günü münasibətilə əsgər və zabitlərimizi təbrik etdi.

davamı səh. 3-də



## Manas Universitetində "Qarabağ Zəfəri" sərgisi

İyunun 28-də Bişkek şəhərindəki Qırğızıstan–Türkiyə Manas Universitetində "Qarabağ Zəfəri" adlı sərgi açılıb. Tədbirdə Bakı Media Mərkəzinin çəkdiyi "Azərbaycan Ordusunun Zəfər Paradı" adlı qısametrajlı film nümayiş olunub.

səh. 2

## Azərbaycan xalça sənəti Kazan Kremlində nümayiş olunacaq

İyulun 8-də Rusiya Federasiyasının Tatarıstan Respublikasında – "Kazan Kremli" Muzey-Qoruğunda "Xalça sənəti – mənaların təkamülü" adlı sərgi açılacaq.

Sentyabrın 5-dək davam edəcək sərgidə Azərbaycan xalçaçılığına, onun ənənələrinə və müasir təcəssümünə həsr olunmuş genişmiqyaslı ekspozisiya təqdim olunacaq. Kazan tamaşaçısı xalçaları tarixi perspektivdə görmək, ornament və sirli mənalar dünyasına qərq olmaq üçün misilsiz bir fürsət əldə edəcək.

Ekspozisiya Tatarıstan Mədəniyyət Nazirliyi, Azərbaycan Mədəniyyət Nazirliyi, Milli Xalça Muzeyi və "Kazan Kremli" Muzey-Qoruğunun birgə təşkilatçılığı ilə təqdim olunacaq.




Azərbaycan xalçalarının ən dolğun kolleksiyasına malik Milli Xalça Muzeyi sərgidə XIX əsrin sonu – XX əsrin əvvəllərində toxunmuş ecazkar klassik xalça nümunələrini nümayiş etdirəcək. Onların hər biri ornament, rəng tərtibatı və texniki xüsusiyyətlərinə görə müxtəlif regional ənənələri əks etdirən nümunələrdir.

2010-cu ildə UNESCO-nun siyahısına daxil edilmiş Azərbaycan xalçaçılıq sənəti davamlı olaraq yeni yanaşmalarla zənginləşsə də, qədim ənənələrini itirmədən inkişaf edir. Kazan sərgisində təqdim olunacaq ənənəvi Azərbaycan xalçalarını və "CHİNGİZ" yaradıcı təxəllüsü ilə işləyən Çingiz Babayevin müəllif əsərlərini birləşdirən məhz bu amildir.

Rəssam Azərbaycan xalçaçılıq ənənələrini təhrif etmədən, müasir sənət nümunələri yaradaraq interpretasiya edir. Beləliklə, klassik əsərlər yeni müəllif xalçaları ilə qarşı-qarşıya qoyulur, bununla da məsafələri və zamanı qət edərək onlarla dialoqa girir. Sərgidə təqdim olunan "Saf tarix" instalyasiyası sənətkar yaradıcılığının açarı ola bilər. Ornamentsiz, birrəngli, təbii yun çalarlı xalça, müxtəlif dövrlərin bir çox simvollarını əsrlər ötdükcə itirsə də, əbədidir.

Sərgini müşayiət edən sənədli filmdə Çingiz Babayev tamaşaçılarla yaradıcılıq prosesinin sirlərini bölüşəcək, ənənəvi xalçanın fəlsəfəsindən və müasir yozumundan bəhs edəcək.

Sərginin açılışında layihənin kuratoru, Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova, eləcə də müasir xalçaların müəllifi Çingiz Babayevin iştirakı planlaşdırılır.

## "Türk dünyasının göy qurşağı"




səh. 5

## Ankarada Azərbaycan Evi və Şuşa Konqres Mərkəzinin açılışı keçirilib

səh. 4

## Türkdilli respublikaların müstəqilliyinin 30 illiyi münasibətilə



səh. 8

№48 (1825)
30 iyun 2021
www.medeniyyet.az

# Müzəffər ordunun, qalib xalqın bayramı



Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu sözləri iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə söyləyib.

Prezident qürur hissi ilə qeyd edib ki, biz ilk dəfədir Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik: "Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır. Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik".

Ali Baş Komandan vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qanını, qisasımızı döyüş meydanında aldı. Eyni zamanda biz heç nəyi unutmayacağıq: "Biz bunu unuda bilmərik. Biz şəhidlərimizi unuda bilmərik, Xocalı qurbanlarını unuda bilmərik, dağılmış şəhərlərimizi unuda bilmərik. Dağılmış qəbirləri, təhqir edilmiş məscidləri biz necə unuda bilərik? Biz heç vaxt unutmamalıyıq. Azərbaycan xalqı bunu öz yaddaşında daim saxlamalıdır".

Dövlət başçısı Ermənistanda revanşizm xülyasına düşən qüvvələrə xəbərdarlıq edib: "Ermənistan dərk etməlidir ki, Azərbaycan bundan sonra da güclənəcək və bu, şübhəsizdir. O cümlədən bizim hərbi gücümüz artacaq. Müharibədən sonra artıq müvafiq göstərişlər verildi, yeni kontraktlar imzalandı, yeni silahların, texnikanın, müasir texnologiyaların əsasında texnikanın alınması prosesi başlamışdır. Silahlı Qüvvələrimizin struktur islahatları təsdiqləndi. Deyə bilərəm ki, Silahlı Qüvvələrimizin, Ordumuzun say tərkibi artırılacaq. Biz İkinci Qarabağ müharibəsinin nəticələrini və gedişatını düzgün təhlil edərək, əlbəttə ki, öz hərbi gücümüzü artıracağıq. Ermənistanın isə, əgər onlar yenə də bizə qarşı düşmənçilik siyasətindən əl çəkməsələr, nəinki hərbi gücünü, nəinki dağılmış, məhv edilmiş ordusunu bərpa etmək imkanı olmayacaq, eyni zamanda, iqtisadi fəallığı bərpa etmək imkanları da çox məhduddur. Ona görə biz güclənəcəyik".

Prezident qeyd edib ki, Ermənistanın inkişafı üçün yeganə yol var – öz qonşuları ilə normal münasibətlər qurmaq və ərazi iddialarından əl çəkmək, Dağlıq Qarabağ sözünü, ümumiyyətlə, işlətməmək: "Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Dağlıq Qarabağ münaqişəsi anlayışı yoxdur. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Ermənistan da bunu belə qəbul etməlidir və bizimlə sərhədlərin müəyyən edilməsi istiqamətində iş aparmalıdır".

İham Əliyev daha sonra deyib: "Delimitasiya üzrə işçi qrup yaradılmalıdır. Sülh müqaviləsinə hazırlıq işləri getməlidir. Biz bunu bəyan edirik. Biz qalib ölkəyik. Ermənistanı məhv etmişik, siz yaxşı bilirsiniz hansı çətin şərait əsasında. Onlar 30 il istehkamlar, 6 müdafiə xətti qurmuşdular. O bölgənin təbii relyefi onlar üçün çox əlverişli idi. Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Hər kəs bunu deyirdi – öldü var, döndü yoxdur. Biz belə çətin şəraitdə qələbə qazanmışıq. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir".

# Dünya kinosuna inteqrasiya üçün vacib addım

## Azərbaycan Film Komissiyasının təqdimat mərasimi keçirildi



əvvəli səh. 1-də

Azərbaycan Film Komissiyası haqqında məlumat verən Anar Kərimov bildirdi ki, bu layihənin gerçəkləşməsi üçün ölkəmizdə hər cür şərait var: mədəni irs, müasir infrastruktur, habelə təbii şərait, tarixi məkanlar və s.

Nazir tədbirdə iştirak edən xarici ölkə səfirliklərinin nümayəndələrini "Filming Azerbaijan" ilə fəal əməkdaşlığa səslədi. Diqqətə çatdırıldı ki, beynəlxalq kino istehsalçılarının Azərbaycana cəlb olunması həyata keçirilir, eyni zamanda "Netflix" platforması ilə yeni irimiqyaslı layihələr gözlənilir. Bu layihə nəinki kino sahəsi, eləcə də ölkə iqtisadiyyatı üçün əhəmiyyəti rol oynayacaq.

Daha sonra çıxış edən "Filming Azerbaijan"ın direktoru İlkin Məmmədli bildirdi ki, komissiyanın yaradılması ölkəmizin müxtəlif sahələrdə geniş potensialının göstəricisidir: "Əsas məqsədimiz bu potensialı reallaşdırmaq və Azərbaycanı beynəlxalq kino istehsalçıları üçün geniş imkanları olan çəkiliş məkanı kimi təqdim etmək, beynəlxalq kino istehsalçıları ilə müştərək layihələr həyata keçirmək və ölkəmizə xaricdən maliyyə vəsaitinin cəlb edilməsini təmin etməkdir. Ümid edirik ki, həyata keçirdiyimiz layihələr və ümumi fəaliyyətimiz Azərbaycanın kino sahəsində, habelə digər sahələrdə dünyada tanıdılmasına və nüfuzunun artırılmasına töhfə verəcək".

"Filming Azerbaijan" tərəfindən Bakı Media Mərkəzinin dəstəyi ilə çəkilmiş "Azərbaycan" adlı qısa tanıtım çarxı təqdim edildi. İlkin Məmmədli Azərbaycan Film Komissiyasının veb-səhifəsi barədə də məlumat verdi.

Direktor çıxışının sonunda "Filming Azerbaijan" komandası tərəfindən Azərbaycanın şanlı Qələbəsi ilə yekunlaşan 44 günlük müharibədə azad edilən Qarabağa həsr olunmuş və 30 il ərzində dağıdılmış tarixi-mədəni irsimizi əks etdirən videoçarxı təqdim etdi.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan çıxış edərək Türkiyə nümayəndə heyətlərinin ötən gün işğaldan azad olunmuş Ağdama səfəri haqda məlumat verdi. O, işğaldan azad edilmiş ərazilərimizin yenidən dirçələcəyinə, buraya həyatın yenidən qayıdacağına əminliyini ifadə etdi. Nazir müavini Türkiyə Film Komissiyasının 2019-cu ildə yaradıldığını vurğulayaraq qardaş ölkə kimi bütün təcrübə və bacarıqlarını Azərbaycanla bölüşəcəklərini diqqətə çatdırdı.

"Lenfilm" Kinostudiyasının (Rusiya) baş direktoru Fyodor Şerbakov layihənin təqdimatı münasibətilə azərbaycanlı həmkarlarını təbrik edərək gələcəkdə bu sahədə qarşılıqlı əməkdaşlığın perspektivlərindən söz açdı. O, rusiyalı kinematoqrafçılara bu layihə haqqında məlumat verəcəyini, yaxın zamanlarda qarşılıqlı müzakirələrin keçirilməsi üçün şərait yaranacağına inandığını dedi.

Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənov diqqətə çatdırdı ki, əslində, Film Komissiyası təşəbbüsü ölkəmiz üçün yenilik deyil. Hələ 2000-ci illərin əvvəlində Professional Kinorejissorlar Gildiyası tərəfindən bu istiqamətdə əhəmiyyətli addımlar atılmışdı: "Təəssüf ki, növbəti illərdə Azərbaycan kinosunda müşahidə edilən durğunluq Film Komissiyasına dair fəaliyyətin inkişafını ləngitdi və biz Mədəniyyət Nazirliyinin yeni komandası kimi bu təşəbbüsün əhəmiyyətini dərk edərək onu dirçəltməyə qərar verdik".

Qeyd olundu ki, son bir il ərzində Azərbaycan kinosunda mövcud vəziyyətin ciddi təhlili aparılıb, beynəlxalq təcrübə öyrənilib və nəticədə plan iqtisadiyyatından bazar iqtisadiyyatına keçidin zəruriliyi müəyyən edilib: "Bu keçidin reallaşdırılması məqsədilə üç əsas istiqamət üzrə işlərin həyata keçirilməsinə başlanılmışdı. İlk növbədə kino sahəsində hüquqi-normativ bazanın beynəlxalq təcrübəyə əsasən təkmilləşdirilməsinə böyük ehtiyac duyulur. Bununla bağlı müvafiq dövlət strukturları ilə əməkdaşlıq aparılır və ümid edirik ki, yaxın zamanlarda bu istiqamətdə əhəmiyyətli nəticələrin şahidi olacağıq. İkinci prioritet istiqamət insan kapitalının artırılmasıdır. Bu məqsədlə Mədəniyyət Nazirliyi tərəfindən bir sıra təlim-tədris proqramları həyata keçirilir və gələcəkdə də kinonun bütün sahələrində təcrübə mübadiləsinin aparılması, ümumi bilik və bacarıq səviyyəsinin artırılması istiqamətində layihələr planlaşdırılır. Üçüncü sahə isə yeni dövrün tələb və çağırışlarına uyğun dayanıqlı infrastrukturun qurulması və inkişaf etdirilməsidir. Mən çox şadam ki, biz bu gün bunun bariz nümunəsi olan Azərbaycan Film Komissiyasını təqdim edirik".

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino idarəsinin rəhbəri Erkin Yılmaz Türkiyə Film Komissiyasının fəaliyyəti haqqında məlumat verdi. Bildirdi ki, layihə üzrə Türkiyədə 507 film ərsəyə gətirilib. O, bu sahədə Azərbaycanın da uğur qazanacağına şübhə etmədiklərini diqqət çatdırdı.

Tədbirin rəsmi hissəsindən sonra konsert proqramı təqdim edildi. Nicat Aslanovun rəhbərliyi ilə təqdim olunan caz musiqisindən ibarət konsertdə Diana Hacıyevanın ifaları maraqla qarşılandı.

**LALƏ**








## Məqsədimiz ölkəmizi kino çəkilişi məkanına çevirməkdir

Film komissiyasını yaratmaqda məqsədimiz Azərbaycanın kino sənayesinin dünya kinosuna inteqrasiyasını təmin etmək, ölkəmizi kino çəkilişi məkanına çevirməkdir.

Mədəniyyət naziri Anar Kərimov bu sözləri iyunun 28-də Azərbaycan Film Komissiyasının ("Filming Azerbaijan") təqdimat mərasimi zamanı jurnalistlərə açıqlamasında deyib.

Nazir qeyd edib ki, Azərbaycanın gözəl təbiəti, zəngin tarixi-mədəni abidələri, ənənələri və qonaqpərvərliyi var: "Malik olduğumuz nemətlərdən maksimum istifadə edərək, aparıcı xarici kinostudiyaların Azərbaycanda çəkiliş aparmaları üçün film komissiyası platforması yaratmaq niyyətindəyik. Bu da xarici kinostudiyaların Azərbaycana gələrək burada filmlər çəkməsinə imkan yaradacaq. Beləliklə, Azərbaycan tanınacaq, onun turizm potensialı təbliğ olunacaq, həmçinin ölkəmizə sərmayə gələcək və iqtisadi baxımdan əlavə əlverişli imkanlar yaranacaq".

Anar Kərimov əlavə edib ki, Azərbaycanda mövcud olan bu şəraitdə yaxşı filmlərin çəkilərək dünyada nümayiş olunması ölkəmizin turizm potensialına müsbət təsir göstərəcək.

Mədəniyyət naziri artıq dünya kino sənayesində aparıcı mövqelərə malik "Netflix" platforması ilə əməkdaşlığın başlandığını da bildirib: "İnanırıq ki, bu əməkdaşlıq Azərbaycanın kino potensialını dünyaya nümayiş etdirmək üçün yaxşı vasitə olacaq".

## Azərbaycan-Türkiyə qardaşlığı kino sahəsində də özünü göstərəcək




Kino mədəniyyətin ən vacib sahələrindən biridir. Çünki kino özlüyündə kitabı, musiqini, digər sahələri də əlaqələndirir. Kino sahəsini inkişaf etdirmək nəinki insanı, mədəni irsi tapmaqda mühüm rol oynayır, eyni zamanda öz mədəniyyətimizi dünyaya çatdırmağa kömək edir.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan bu sözləri Azərbaycan Film Komissiyasının təqdimat mərasimində jurnalistlərə açıqlamasında söyləyib.

İki il öncə Türkiyədə film sənayesində dəyişikliklər aparmağa başladıqlarını deyən nazir müavini bildirib ki, məqsədimiz ölkəmizi tanıtmaq idi: "Biz yerli firmalara dəstək verib, əcnəbi kinoşirkətləri də Türkiyəyə dəvət etməklə onların çəkdiyi filmlərdə Türkiyə görüntülərini dünya ictimaiyyətinə təqdim edərək öz mədəniyyətimizi nümayiş etdirməyə çalışmışdıq. Belə bir layihənin Azərbaycanda da qəbul edilməsinin doğru olduğunu görürəm. Düşünürəm ki, bu yolla Azərbaycanın mədəniyyəti, tarixi bir məcrada toplanacaq və dünya qarşısında təbliğ olunacaq".

Türkiyəli nazir müavini qeyd edib ki, Qarabağı azad edən azərbaycanlıların dünyaya verəcəyi mesajları var: "O mesajları kino vasitəsilə ötürməyin doğru olduğunu düşünürəm. Azərbaycan-Türkiyə qardaşlığı hər bir sahədə özünü göstərdiyi kimi, kino sahəsində də özünü göstərəcək. Əlbəttə, mədəniyyət və təhsil önəmli bir sahələrdir və bunları isə kino birləşdirir".

## Film Komissiyasının yaradılması bu sahədə dəyişikliklərə səbəb olacaq

Azərbaycan Film Komissiyasının yaradılması bizim üçün gələcək əməkdaşlıq baxımından əlamətdar bir hadisədir.

Bu sözləri "Lenfilm" Kinostudiyasının baş direktoru Fyodor Şerbakov Azərbaycan Film Komissiyasının açılış mərasimində deyib.

"Biz işlərin gedişatını diqqətlə izləyirik. Rusiyanın müxtəlif bölgələrində, həmçinin Sankt-Peterburqda, "Lenfilm" Kinostudiyasında da Film Komissiyası aktiv olaraq fəaliyyət göstərir. Film Komissiyasının yaradılması nəinki milli kinonu inkişaf etdirmək, eyni zamanda dünya kinosuna inteqrasiya etməsi üçün çox vacibdir. Buna görə də Azərbaycanda Film Komissiyasının yaradılması kino sənayesində böyük dəyişikliklərə səbəb olacaq. Dəyişikliklər, ilk növbədə, struktur sahəsinə təsir edəcək ki, bu da Azərbaycanı gözəl bir çəkiliş meydançasına çevirəcək və bütün kinematoqrafçıları rahat bir platformaya dəvət edəcək. Bu, çox vacibdir. Biz bunu artıq müzakirə etmişik və düşünürük ki, ölkənizdə olan kinostudiyalardan nəinki istifadə edəcəyik, eyni zamanda öz həmkarlarımız arasında Azərbaycanın daşıdığı imkanların təbliği ilə məşğul olacağıq", – deyə Fyodor Şerbakov vurğulayıb.

# Manas Universitetində "Qarabağ Zəfəri" sərgisi

İyunun 28-də Bişkek şəhərindəki Qırğızıstan–Türkiyə Manas Universitetində "Qarabağ Zəfəri" adlı sərgi açılıb. Bu barədə Azərbaycanın Qırğızıstandakı Səfirliyindən məlumat verilib.

Tədbirdə ilk olaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan, Qırğızıstan və Türkiyənin himnləri səslənib. Bakı Media Mərkəzinin çəkdiyi "Azərbaycan Ordusunun Zəfər Paradı" adlı qısametrajlı film nümayiş olunub.

Qırğızıstan–Türkiyə Manas Universitetinin rektoru, professor Alpaslan Ceylan Qarabağda 30 illik işğala son qoyan Azərbaycan Ordusunu təbrik edib, şəhidlərimizə Allahdan rəhmət diləyib, qazilərimizin tezliklə sağalmasını arzulayıb. Rektor Azərbaycan-Türkiyə birliyinin dostluq və qardaşlığın bariz nümunəsi olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı Qələbə qazandığı Vətən müharibəsi barədə danışıb. Səfir müharibə zamanı qardaş Türkiyənin Azərbaycana verdiyi mənəvi dəstəkdən də bəhs edib: "Vətən müharibəsində qardaş Türkiyənin mənəvi, psixoloji, siyasi, diplomatik dəstəyi bizim üçün çox önəmli amillərdən idi. Həmçinin qardaş Türkiyə vətəndaşlarının xalqımıza verdiyi dəstək bizi daha da qürurlandırırdı".

Türkiyənin Qırğız Respublikasındakı səfiri Əhməd Sadık Doğan çıxışında Azərbaycanın haqq savaşında haqlı qələbə qazandığını söyləyib, Azərbaycan xalqını və Türk dünyasını böyük tarixi hadisə münasibətilə təbrik edib.

Mərasimdə "Azəri" İctimai Təşkilatının fəxri prezidenti, Qırğızıstanın Əməkdar həkimi Akif Alaferdov və "AzVirt Qırğızıstan" şirkətinin direktoru Çingiz Baxişev də çıxış ediblər.

Sonra qonaqlar rəşadətli Ordumuzun Zəfər yolunu əks etdirən sərgi ilə tanış olublar.

## "Qarabağın musiqi irsi və Ərtoğrol Cavid"

AMEA-nın Hüseyn Cavidin Ev-Muzeyi "Qarabağın musiqi irsi və Ərtoğrol Cavid" kitabını nəşrə hazırlayıb. Kitabın tərtibçisi və ön sözün müəllifi muzeyin direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlıdır.

Nəşrdə Qarabağ xanəndələrinin ifa etdiyi Azərbaycan klassik musiqi mətnləri, Cabbar Qaryağdıoğlu, Süleyman Mansurov və Camal Cəfərovun Qarabağın musiqi keçmişinə dair xatirələri, onların repertuarına daxil olan, Qarabağ toylarında oxunan mahnılar və digər materiallar, Hüseyn Cavidin dünyadan vaxtsız köçmüş oğlu, dərin analitik düşüncə sahibi Ərtoğrol Cavidin bunlara dair elmi araşdırmaları yer alıb.

Kitabın hazırlanmasında Ərtoğrol Cavidin muzeyin fondunda saxlanılan şəxsi arxivinə aid materiallardan istifadə olunub.

# Ordu-xalq birliyinin ekran təcəssümü

## "Biz" tarixi-sənədli filminin təqdimat mərasimi keçirildi

əvvəli səh. 1-də

Nazir bildirdi ki, ölkəmiz tarixinin ən gözəl günlərini yaşayır: "Buna görə də Ali Baş Komandan İlham Əliyev başda olmaqla qüdrətli Ordumuza təşəkkür edirəm. Vətən müharibəsində Ordumuzun göstərdiyi qəhrəmanlıqları gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur. Bu gün Şuşamızda bayram keçiririk, Ağdamımızda və digər azad olunmuş şəhərlərimizdə quruculuq işləri aparılır. 44 günlük Vətən müharibəsində qardaş Türkiyə daim yanımızda oldu, həm mənəvi, həm siyasi, həm də informasiya dəstəyi göstərdi. Bir daha bu dəstəyə görə qardaş Türkiyə Respublikasına təşəkkürümü bildirirəm. Bundan sonra bu qardaşlıq daha da möhkəmlənəcək. Hamı bilməlidir ki, artıq iki qardaş dövlətin əməkdaşlığı Şuşa Bəyannaməsi ilə ən yüksək səviyyəyə – müttəfiqliyə çatıb".

Anar Kərimov qeyd etdi ki, döyüş meydanında savaşımız bitsə də, diplomatik səviyyədə və mədəniyyət sahəsində mübarizəmiz hələ davam edir: "Biz bu savaşda da qalib gəlməliyik. Mədəniyyət sahəsində də gücümüzü, qardaşlığımızı bütün dünyaya elan etməliyik".

Nazir çıxışının sonunda filmin ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə Bakı Media Mərkəzinə minnətdarlığını bildirdi.

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan ilk olaraq Silahlı Qüvvələr Günü münasibətilə Türkiyə Prezidenti Rəcəb Tayyib



Ərdoğan və mədəniyyət və turizm naziri Mehmet Nuri Ərsoyun təbriklərini çatdırdı. Bildirdi ki, Türkiyə həmişə olduğu kimi, bu gün də qardaş Azərbaycanın yanındadır: "Türkiyənin tanınmış şairi Namiq Kamal "Vətən mahnısı" şeirində belə deyirdi: "Əcdadımızın heybəti mərufi-cahandır, Fitrət dəyişir sanma, bu qan yenə o qandır!". Biz bundan sonra Qarabağ Zəfəri şeirini yazacağıq ki, oxunsun, musiqisini ifa edəcəyik ki, dinlənilsin, filmini çəkəcəyik ki, izlənilsin. Bu sadaladıqlarım ən az Zəfər qədər önəmlidir. Qələbəni ordular qazanır, ancaq bütün zəfərləri mədəniyyət, sənət, şeir və şüur yaşadır. Yaşasın əsgərlərimiz, şeirlərimiz, birliyimiz.

*Şanlı Vətən, şanlı Vətən,*
*Azərbaycan, Azərbaycan,*
*Azərbaycan!"*

Qardaş Azərbaycana əmin-amanlıq və firavanlıq arzulayıram".

Daha sonra "Biz" filminin yaradıcı heyəti səhnəyə dəvət olundu. Filmin ideya müəllifi və rejissoru, Bakı Media Mərkəzinin icraçı direktoru Orman Əliyev ekran əsəri haqqında məlumat verdi. Qeyd etdi ki, filmdə Vətən müharibəsi dövründə müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəmancasına ön cəbhədə döyüşən Azərbaycan əsgəri ilə yanaşı, arxa cəbhədə onu dəstəkləyən vətənpərvər sadə vətəndaşların da ümumi Qələbədə oynadığı rol göstərilir: "Həm əsgərlərimiz, həm də sadə vətəndaşların müharibə dövründə keçirdiyi mənəvi-psixoloji ruh yüksəkliyi, ortaya çıxan yeni müsbət cizgilər və ən əsası hər bir azərbaycanlının Qələbəyə sona qədər inam bəsləməsi filmdə öz əksini tapıb. Filmdə eyni zamanda müharibə dövründə fenomenə çevrilən, videosu və fotosu ən çox paylaşılan, ən çox müzakirə olunan sadə insanların müsahibələrinə də yer verilib. Müharibədə baş verən taleyüklü hadisələri məhz onlar və həmin anın şahidləri danışırlar".




Filmin adına da diqqət çəkən Orman Əliyev söylədi ki, Azərbaycan Ordusu Vətən müharibəsində qalib gəlməklə öz gücünü və imkanlarını bütün dünyaya nümayiş etdirdi. Bu həm də Azərbaycan insanının – yəni bizlərin gücü idi. Hər bir azərbaycanlı mən yox, məhz "biz" deyərək ümumi Qələbədə öz tarixi rolunu oynadı.

Sonda "Biz" tarixi-sənədli filmi nümayiş olundu.

Qeyd edək ki, filmin prodüseri C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının direktoru Fariz Əhmədov, operatorları Əli Əliyev, Ziya Babayev, səs rejissoru Azad Vəliyev, redaktorları Ayaz Mirzəyev və İlham Bərxudar, montajçısı isə Əsgər Rəhimovdur.

**Nurəddin MƏMMƏDLİ**



# Qəzəl-romans müsabiqəsinin qalibləri mükafatlandırıldı

İyunun 29-da Azərbaycan Bəstəkarlar İttifaqının konsert salonunda qurumun "Nizami Gəncəvi İli"ndə elan etdiyi qəzəl-romans janrında müsabiqənin qalibləri mükafatlandırıldı.

Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə çıxış edərək müsabiqənin əhəmiyyətindən danışdı. Bildirdi ki, bu müsabiqənin çox gözəl bir özəlliyi oldu: "Müsabiqədə peşəkar, qocaman bəstəkarlarla bərabər gənc bəstəkarlar da iştirak edirdi. Çox maraqlı və diqqətçəkən əsərlər təqdim edilmişdi. Biz onların ən yaxşılarını mükafata təqdim etdik. Sevindirici haldır ki, regionlarda yaşayan bəstəkarlar da müsabiqəyə qatılmışdı. İnanıram ki, onların əsərləri gələcək müsabiqələrdə layiqli yer tutacaq. Müsabiqələr həm bəstəkarların tanınmasına, həm də onların arasında rəqabət mühitinin yaranmasına təkan verir".

Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, münsiflər heyətinin üzvü Zemfira Qafarova bildirdi ki, müsabiqəyə maraqlı əsərlər təqdim edilmişdi: "Onlarla bir-bir tanış olduq və maraqla dinlədik. Seçim çətin olsa da, obyektiv olmağa çalışdıq".

Çıxışlardan sonra mükafatlar sahiblərinə təqdim edildi.

Birinci dərəcəli mükafat Xalq artisti Dadaş Dadaşova, ikinci dərəcəli mükafat sənətşünaslıq namizədi Lalə Cəfərovaya, üçüncü dərəcəli mükafat Xalq artisti Azər Dadaşova verildi.

Bəstəkarlardan Tahir İbişov, Fərid Fətullayev və Kəmalə Əlizadə fəxri diplomla təltif olundular.

Xalq artisti Dadaş Dadaşov çıxış edərək müsabiqənin təşkilində zəhməti olan hər kəsə təşəkkür etdi. Bildirdi ki, Nizami poeziyasını anlamadan ona musiqi bəstələmək olduqca çətindir.

**Savalan FƏRƏCOV**

### Bölgələrdən xəbərlər

# Müzəffər Ordumuz – güvən və qürur yerimiz

Bu il ölkəmizdə 26 İyun – Silahlı Qüvvələr Günü ilk dəfə Qələbə ab-havasında qeyd olundu. Bölgələrdəki mədəniyyət müəssisələrində keçirilən tədbirlərdə Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyan müzəffər Ordumuzun dünyaya səs salan qəhrəmanlığından söz açılıb.



Ağstafa Regional Mədəniyyət İdarəsinin təşəbbüsü, tabe müəssisələrin təşkilatçılığı ilə Silahlı Qüvvələr Gününə həsr olunmuş silsilə tədbirlər keçirilib. Mədəniyyət mərkəzləri və musiqi məktəbləri tərəfindən idarənin əhatə etdiyi Ağstafa, Qazax və Tovuz rayonlarında yerləşən hərbi hissələrdə konsert proqramları təşkil olunub.

Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Elbəy Əli, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Ağstafa və Tovuz rayon komitələrinin sədrləri Zahid Sultanov və Asif Qasımov, Ağstafa rayon MKS-nin direktoru Solmaz Nağıyeva və idarənin Tovuz rayonu üzrə nümayəndəsi Adil Həsənov Ordumuzun bayramında Vətən müharibəsi qaziləri Səməd Xəlilov, Rafael Yusifov, Elməddin Gülməmmədov, Rəşad İsmayılov, Vəli Həsənov və Elşən İbrahimovu ziyarət ediblər.




İsmayıllı Regional Mədəniyyət İdarəsi və Dövlət Turizm Agentliyinin tabeliyində olan "Lahıc" Dövlət Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı ilə bayram konserti təqdim olunub. Konsertdə "Lahıc" folklor kollektivi, aşıq Elman Talıstanlı, Şamaxıdan Əməkdar mədəniyyət işçisi Rasim Ələsgərov çıxış ediblər. Şamaxı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev adına parkda "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda tədbir keçirilib.




Bərdə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə regional idarənin rəis müavini Validə Nabatova çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixindən və Vətən müharibəsində Qələbəmizdən söz açıb.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Neftçala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Vətən müharibəsi qaziləri Sənan Hacıyev, Seymur Xaliqov və Murad Həsənovun ailəsinə baş çəkiblər. Neftçala Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları isə Vətən müharibəsi şəhidi Elvin Dadaşovun ailəsini ziyarət ediblər.




Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov, idarənin əməkdaşları, tabe müəssisələrin rəhbərləri Ordumuzun bayramı münasibətilə rayonun Şərəfə kəndində şəhid Nurlan Əbilovun ailəsini ziyarət ediblər. İdarə rəhbərliyi Musaküçə və Bala Kolatan kəndlərində Vətən müharibəsi iştirakçısı Mənsim Mənsimli və şəhid Əli Quliyevin ailəsinə də baş çəkib. Silahlı Qüvvələr Günü münasibətilə Masallı rayon Mədəniyyət Mərkəzinin sənət kollektivi və Masallı Dövlət Regional Kolleci tələbələrinin birgə iştirakı ilə onlayn musiqili kompozisiya təqdim edilib. R.Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Keçmişimiz və bu günümüz" mövzusunda tədbir keçirilib. Cəlilabad rayon Alar kənd Mədəniyyət evinin incəsənət ustaları "Müzəffərdir mənim Ordum" adlı onlayn musiqili proqram təşkil edib. Rayonun Xanəgah və Gülməmmədli kənd mədəniyyət evlərinin kollektivləri "Vətən bizi səsləyir" adlı onlayn musiqili proqramla çıxış ediblər.

Şəki Regional Mədəniyyət İdarəsi Qax rayonu Şıxlar kənd klubu "Vətən qəhrəmanları", Oğuz rayon MKS-nin Baş Daşağıl kənd kitabxana filialı isə "Ordumuz qürurumuzdur" adlı tədbirlər keçiriblər.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon 97 saylı köçkün tam orta məktəbinin şagirdləri Ağdam rayon Heydər Əliyev Mərkəzinə ekskursiya ediblər.

Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon MKS-nin təşkilatçılığı ilə keçirilən "Qalib Ordumuz" adlı tədbirdə ərazi bütövlüyümüzü bərpa edən müzəffər Silahlı Qüvvələrimizin qürur yerimiz olduğu vurğulanıb.



Sabirabad Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Vətən müharibəsində yaralanmış, 1-ci, 2-ci, 3-cü qrup əlilliyi olan qazilərlə Sabirabad rayonundakı "Ana Kür" ailəvi istirahət mərkəzində görüş keçirilib. Görüş zamanı çıxış edənlər qaziləri düşmən üzərində qazanılan tarixi Qələbə münasibətilə təbrik edib, müzəffər Ordumuzun torpaqlarımızın azadlığı uğrunda göstərdiyi şücaətin əsl qəhrəmanlıq salnaməsi olduğunu diqqətə çatdırıblar. Sonda qazilərə Sabirabad Regional Mədəniyyət İdarəsinin hədiyyələri təqdim edilib.



Sumqayıt Regional Mədəniyyət İdarəsi Sumqayıt Dövlət Rəsm Qalereyasında istedadlı və yaradıcılıq qabiliyyəti olan şagirdlər arasında "Ordumun gücü" adlı rəsm müsabiqəsi keçirilib. Abşeron rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Vətən oğulları" adlı tədbir təşkil olunub. Regional idarənin Xızı rayon nümayəndəliyinin təşkilatçılığı ilə N saylı hərbi hissədə konsert proqramı keçirilib.



Kürdəmir Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə N saylı hərbi hissədə konsert təqdim olunub. Tədbirdə çıxış edən regional idarənin rəisi Faiq Xudanlı bayram münasibətilə təbriklərini çatdırıb, müstəqillik dövründə Azərbaycanın ordu quruculuğundan, Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun qazandığı Zəfərdən bəhs edib. Kürdəmir Regional Mədəniyyət İdarəsində Kürdəmir rayon Mədəniyyət Mərkəzinin hazırladığı şəhidlər guşəsinin açılışı olub. Xocavənd rayon Mədəniyyət evinin təşkilatçılığı ilə "Ordumuz qürurumuzdur" adlı dəyirmi masa keçirilib.

Lənkəran Regional Mədəniyyət İdarəsi Lənkəran şəhər Heydər Əliyev Mərkəzi "Güclü Azərbaycan Ordusu şanlı Zəfərini tarixə yazdı" mövzusunda videokonfrans keçirib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Mərkəzi kitabxanasının Uşaq şöbəsi "26 İyun Silahlı Qüvvələr Günüdür" adlı kitab sərgisi təşkil edib. MKS-nin Mərkəzi kitabxanası B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzi ilə birgə "Ordumuz qürurumuzdur" adlı onlayn tədbir keçirib.

Şəmkir Regional Mədəniyyət İdarəsinin Göygöl rayon üzrə nümayəndəliyinin təşkilatçılığı ilə videokonfrans keçirilib. Gədəbəy rayon Mədəniyyət Mərkəzi isə N saylı hərbi hissədə bayram konserti təşkil edib.

Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə regional idarənin tabeliyində fəaliyyət göstərən Kəlbəcər rayon Uşaq incəsənət məktəbinin "Dəlidağ" xalq çalğı alətləri ansamblı (bədii rəhbər Elçin Kərimov) N saylı hərbi hissədə konsert proqramı təqdim edib.



Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı "Zəfər tarixini yazan ordu" adlı ədəbi-bədii kompozisiya keçirib. Goranboy rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Qüdrətli ordu iqtisadiyyatın güclü inkişafının təzahürüdür" adlı dəyirmi masa təşkil edilib. Goranboy Dövlət Rəsm Qalereyasında əlamətdar günlə bağlı sərgi təşkil olunub. Rayonun Nizami kənd Sənətkarlıq evi, Baxçakürd kənd Mədəniyyət evi və Qaradağlı kənd Diyarşünaslıq evinin birgə təşkilatçılığı ilə N saylı hərbi hissədə konsert proqramı təqdim edilib. Xocalı rayon Mədəniyyət evinin təşkilatçılığı, Xocalı şəhər 1 və 3 nömrəli Uşaq musiqi məktəblərinin iştirakı ilə N saylı hərbi hissədə konsert proqramı keçirilib.

## Hər cümlə – bir xəbər

Bərdə Regional Mədəniyyət İdarəsi və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Tərtər şəhərindəki Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında "Kreativ sənaye və yerli imkanlar" adlı sərgi-yarmarka keçirilib.

Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov idarənin tabeliyində olan mərkəzi mədəniyyət müəssisələrinin rəhbərləri ilə videokonfrans formatında iclas keçirib.

Sumqayıt Regional Mədəniyyət İdarəsində keçirilən iclasda rəis Rəşad Əliyev mədəniyyətin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, bu istiqamətdə Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər barədə danışıb.



Şəki Regional Mədəniyyət İdarəsi Oğuz rayon MKS-nin Baş Daşağıl kənd kitabxana filialının həyətində "açıq kitabxana" günü keçirilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon MKS-nin Qarayeri qəsəbə kitabxana filialı və Uşaq musiqi məktəbi Samux rayon Heydər Əliyev Mərkəzi ilə birlikdə Aşıq Ələsgərin 200 illiyi münasibətilə "Haqq aşığı" adlı onlayn tədbir təşkil edib.

**Hazırladı: N.MƏMMƏDLİ**

## Mədəniyyət Nazirliyində Kuba səfiri ilə görüş

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyunun 25-də Kuba Respublikasının ölkəmizdəki səfiri Alfredo Nieves Portuondo ilə görüşüb.

Qonağı salamlayan nazir Anar Kərimov Azərbaycan və Kuba arasında ikitərəfli münasibətlərin müxtəlif sahələr üzrə inkişafından məmnunluğunu ifadə edib, mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğunu söyləyib.

Görüş zamanı iki ölkə arasında mədəniyyətin müxtəlif sahələrində təcrübə mübadiləsinin, tədbirlərin təşkilinin əhəmiyyəti qeyd edilib, ikitərəfli münasibətlərin gələcək inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Qəbula görə nazirə təşəkkürünü bildirən səfir Alfredo Nieves Portuondo Azərbaycan və Kuba arasında mədəniyyət sahəsində birgə fəaliyyətin səmərəli təşkili məqsədilə bu kimi görüşlərin əhəmiyyətini vurğulayıb. Mövcud əlaqələrin möhkəmləndirilməsinin vacibliyini diqqətə çatdıran diplomat ölkəsinin bu sahədə əməkdaşlığa hazır olduğunu deyib.

## Qobustanın tarixi-mədəni zənginliyi ilə tanışlıq

Kino sahəsində əməkdaşlıq məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Cümhuriyyəti mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircanın rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də digər ölkələrdən gəlmiş kino sahəsi üzrə mütəxəssislər iyunun 27-də Qobustan Milli Tarix-Bədii Qoruğunu ziyarət ediblər.



Qonaqları Azərbaycan Respublikası mədəniyyət nazirinin müşaviri Elnur Əliyev, Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənov və nazirliyin digər məsul şəxsləri müşayiət ediblər.

Qonaqlar Azərbaycan tarixi-mədəni irsinin daş yaddaşı olan Qobustan abidələri, buradakı qayaüstü rəsmlər, qoruq ərazisindəki muzey kompleksi ilə maraqla tanış olublar. Qoruq ərazisində qazıntılar nəticəsində aşkar olunmuş artefaktlar haqqında da məlumat verilib.

## "Ən igid əsgər bizim əsgər"

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə "Ən igid əsgər bizim əsgər" adlı tədbir keçirilib. Tədbirdə qonaq qismində İkinci Qarabağ müharibəsinin iştirakçıları Sübhan Xankişiyev, Nurlan Süleymanov və Namiq Manafov iştirak ediblər.



Tədbiri muzeyin şöbə müdiri Xanım Abdinova açaraq 103 il əvvəl, 1918-ci ilin 26 iyununda Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordusunun əsasının qoyulduğunu bildirib. Vurğulayıb ki, 2020-ci ilin Vətən müharibəsindəki tarixi Qələbədən sonra bu günü müzəffər Ordu və qalib xalq olaraq qeyd edirik.

Sonra görüşün qonaqları haqqında məlumat verilib. Bildirib ki, Laçın, Füzuli rayonlarının işğaldan azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək, şəxsi igidlik və şücaət nümayiş etdirmiş hər üç qazi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təltif olunublar. Sübhan Xankişiyev "Laçının azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarına, Nurlan Süleymanov "Füzulinin azad olunmasına görə" medalına, Namiq Manafov "Laçının azad olunmasına görə" medalına layiq görülüb.

Sübhan Xankişiyev bir vaxtlar Musiqi Mədəniyyəti Dövlət Muzeyinin əməkdaşı olub.

Görüşdə Sübhanın cəbhə yoldaşı – şəhid Tamerlan Mahmudovun xatirəsi yad edilərək videoçarx nümayiş olunub. Həmçinin İkinci Qarabağ müharibəsinin könüllü iştirakçısı – Azərbaycan Milli Konservatoriyasının tələbəsi, Bakı Humanitar Kollecinin müəllimi tarzən Fərid Atazadə ilə virtual görüş keçirilib.

## Türkiyə ilə kino sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Xəbər verdiyimiz kimi, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib. İyunun 26-da Azərbaycanın mədəniyyət naziri Anar Kərimov Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin heyətini qəbul edib.



Qonaqları səmimi salamlayan nazir Anar Kərimov Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 15-də Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində gerçəkləşən görüşündən söz açıb. Ölkələrimiz arasında strateji səviyyədə inkişaf edən münasibətlərdən yüksək məmnunluğunu ifadə edən nazir prezidentlər tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni xüsusilə qeyd edib. Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qalxmasının iki ölkənin maraq və mənafelərinə xidmət etdiyi vurğulanıb.

Türkiyə ilə mədəniyyət sahəsində əməkdaşlığın daha da gücləndirilməsi və müxtəlif istiqamətlər üzrə təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdıran Anar Kərimov bu işbirliyinin 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi Qələbənin həm Türk dünyasında, həm də beynəlxalq platformada ən yüksək səviyyədə, eləcə də kino vasitəsilə təbliğində də böyük önəm daşıdığını bildirib.

Səmimi qəbula görə nazirə təşəkkürünü bildirən Ahmet Misbah Demircan qarşılıqlı səfərlərin iki qardaş ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə əhəmiyyətli töhfə verdiyini deyib. Kino sənayesinin Azərbaycan-Türkiyə mədəni əməkdaşlığının mühüm istiqamətlərindən biri olduğunu vurğulayan nazir müavini bu çərçivədə lazımi dəstəyin göstəriləcəyini qeyd edib. O, həmçinin kino vasitəsilə beynəlxalq arenaya çıxmaq üçün bədii və sənədli filmlərlə yanaşı, animasiya filmlərinin də önəmini diqqətə çatdırıb.

Görüş zamanı kino sahəsində Türkiyə ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində Vətən müharibəsində tarixi Zəfərə və Qarabağa həsr olunan müştərək filmlərin, serialların istehsalı, birgə film festivallarının keçirilməsi, hər iki ölkənin dövlət və özəl kino qurumları və kinematoqrafçıları arasında təcrübə mübadiləsinin aparılması məsələləri müzakirə olunub. Həmçinin Azərbaycan-Türkiyə müştərək layihəsi olan "Fulya" sənədli filmindən söz açılıb və çəkilişlərin başlandığı bildirilib.

Görüşdə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino idarəsinin baş direktoru Erkin Yılmaz, Azərbaycan mədəniyyət nazirinin müşaviri Elnur Əliyev, Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənov, həmçinin iki ölkə nazirliklərinin digər məsul şəxsləri iştirak ediblər.

## "Gördüyümüz vandalizm dünya mədəniyyət tarixinə bir zülm dövrü kimi düşəcək"

### Türkiyə və Rusiyadan gələn nümayəndə heyəti Ağdama səfər edib

*əvvəli səh. 1-də*

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun 2020-ci ilin payızında 44 günlük müharibədə qazandığı Zəfər nəticəsində Ağdam da işğaldan azad edilib. İndi Ağdamın yeni, bərpa-quruculuq dövrü başlayıb.

Türkiyəli və rusiyalı nümayəndələr Ağdamda Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksində olublar. Bildirilib ki, XVIII əsrə aid bu tarixi-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən vandalizmə məruz qalıb, xan sarayından tövlə kimi istifadə edilib. Qarabağ xanlarının nəslindən olmuş görkəmli şəxslərin dəfn edildiyi qəbiristanlıq, o cümlədən İbrahimxəlil xanın türbəsi və Mehdiqulu xanın qızı, şairə Xurşudbanu Natəvanın qəbirüstü abidəsi dağılıb.

Sonra Ağdam şəhər Cümə məscidinə gələn qonaqlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, işğal dövründə vandalizmə məruz qalan Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilib. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub. İşğalçılar Ağdam Cümə məscidində də mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Türkiyəli nümayəndə heyəti və rusiyalı qonaqlar Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə yeksan etdikləri binaların qalıqlarına baxıblar. Ağdam Dram Teatrının qalıqları da bu küçədədir. Bildirilib ki, Ağdam şəhərində açıq hava altında İşğal muzeyi yaradılacaq. Teatr binasının qalıqları da burada nümayiş olunacaq.

Ağdam Çörək muzeyinin dağıntıları ilə tanışlıq zamanı bildirilib ki, bu unikal muzeyin binası da erməni barbarları tərəfindən dağıdılıb, eksponatları talan olunub. Dünyada ikinci hesab edilən bu muzeydə nadir eksponatlar – taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı.

Qonaqlar Ağdama səfər zamanı Qiyaslı məscidini də ziyarət ediblər. Bildirilib ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalı zamanı XVIII əsrə aid məscidin binasından mal-qara tövləsi kimi istifadə edən işğalçılar rayonu tərk etməmişdən əvvəl onu yandırıblar.

Türkiyə və Rusiyadan gələn qonaqlar Ağdama səfərin sonunda Şahbulaq qalasında olublar. Onlara qala haqqında məlumat verilib. Bildirilib ki, XVIII əsrə aid qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Ermənilər Ağdamı işğal etdikdən sonra Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər.

27 il işğal altında qalmış torpaqlarda hər şeyin məhv edildiyini görməkdən təəssüfləndiyini bildirən türkiyəli qonaq, bununla yanaşı, həyata keçiriləcək quruculuq işlərinə görə sevincini ifadə edib: "Azərbaycan dövləti burada geniş bir inkişaf planı hazırlayıb. Yeni şəhər müasir texnologiya əsasında qurulacaq. Qısa zaman içərisində. Yaxşı ki, Azərbaycan dövləti var, Azərbaycan ordusu var, Azərbaycan-Türkiyə qardaşlığı var. Yaxşı ki, pis kabusun sonuna çatmağın xoşbəxtliyini yaşadıq".

Azərbaycan dövlətinin Qarabağı yenidən qurmağa, inkişaf etdirməyə gücü yetər. Türkiyə olaraq biz də yenidənqurma və inkişaf üçün əlimizdən gələn hər cür dəstəyi verməyə hazırıq. Mədəniyyətdən təhsilə, incəsənətdən ədəbiyyata, əkinçilikdən heyvandarlığa, sənayeyə qədər nə lazımdırsa



#### "Burada yeni bir mədəniyyətin inşa ediləcəyini görəcəyik"

Hər tərəfi tar-mar edilmiş, heç bir həyat əlaməti olmayan, yerlə-yeksan olmuş bir şəhərdəyik. Bütün binalar yox edilib. Burada həyata keçirilən vəhşiliklər dünya mədəniyyət tarixinə bir zülm dövrü kimi düşəcək.

Bu sözləri Ağdam şəhərinə səfər etmiş Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan deyib.

Türkiyə dəstəyini əsirgəməyəcək.

Bunu isə nümayəndə heyəti ilə Ağdama səfər etmiş Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı bildirib.

Səfir Ağdam şəhərinə gəldiyi üçün böyük sevinc hissi keçirdiyini deyib: "Azərbaycan bayrağının burada dalğalanması ayrı sevincdir. İnşallah, Azərbaycanın üçrəngli bayrağı işğaldan azad edilmiş Qarabağda əbədi olaraq dalğalanacaq. Qısa zamanda Qarabağda yeni həyatın başlayacağını səbirsizliklə gözləyirik".

## Ankarada Azərbaycan Evi və Şuşa Konqres Mərkəzinin açılışı keçirilib



İyunun 28-də Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri çərçivəsində Ankarada Azərbaycan Evinin və Şuşa Konqres Mərkəzinin açılışı oldu.

Tədbirdən əvvəl Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin rəisi Abdullah Eren və Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım ölkəmizin Ankaradakı səfirliyində ümummilli lider Heydər Əliyevin büstünü ziyarət etdilər.

İki ölkə nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan Evinin və Şuşa Konqres Mərkəzinin açılış mərasimi şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirildi.

Tədbirdə açılış nitqi söyləyən Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun sədri, professor Aygün Attar 44 günlük Vətən müharibəsində hərbçilərimizin rəşadətindən, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı Qələbədən danışdı. Bildirdi ki, Türkiyənin də siyasi-mənəvi dəstəyi ilə qazanılan parlaq Zəfər bütün Türk dünyasının tarixində yeni şanlı səhifədir. Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət!", Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!" ifadələrini xatırladan A.Attar qeyd etdi ki, Azərbaycan-Türkiyə qardaşlığı sayəsində əldə olunan böyük nəticələr dahi şəxsiyyətlərimizin ruhunu şad edir: "Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qətiyyətli qərarları iki qardaş ölkənin birgə inkişafını təmin edir".

Azərbaycan-Türkiyə münasibətlərindən danışan Dövlət Komitəsinin sədri Fuad Muradov isə qeyd etdi ki, bu gün iki dövlətin dostluğu dünyanın diqqət mərkəzindədir: "Cənab Prezidentimiz dəfələrlə bəyan edib ki, Azərbaycanla Türkiyənin dostluğu bütövlükdə regiounun sabitliyi deməkdir. Biz də Diasporla İş üzrə Dövlət Komitəsi olaraq çalışırıq ki, əməkdaşlığımızı başqa ölkələrə də yaymaqla bu xoşməramlı siyasətə dəstək olaq".

Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin rəisi Abdullah Eren çıxışında iki ölkənin diaspor təşkilatları qarşısında duran vəzifələr, birgə fəaliyyətin tələbləri və yaratdığı perspektivlərdən bəhs etdi.

Çıxış edənlər Ankaradakı Azərbaycan Evinin işinə uğurlar arzu etdilər. Vurğulandı ki, bura Türkiyədə yaşayan azərbaycanlılar, eləcə də bütün azərbaycansevərlər üçün doğma məkana çevriləcək.

Tədbirdə həmçinin Azərbaycan-Türkiyə əlaqələrində xidməti olan qonaqlar Azərbaycan Evi adından mükafatlandırıldı.

Mərasim bədii-musiqili proqramla davam etdi. "Cıdır düzündə konsert" adlı videoçarx nümayiş etdirildi. Sonra iştirakçılar Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun da yerləşdiyi Azərbaycan Evi ilə tanış oldular.

**Mehparə SULTANOVA**
**Ankara**

# "Türk dünyasının göy qurşağı"

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun nəşr etdiyi kitabın təqdimatı

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihəsi üzrə türkdilli xalqların nağıllarından ibarət "Türk dünyasının göy qurşağı" adlı kitab nəşr olunub. İyunun 25-də fondda kitabın təqdimat mərasimi keçirilib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış edərək bildirib ki, kitabın adı təsadüfi seçilməyib. Çünki hər bir türk nağılı göy qurşağı rəngləri kimi əlvandır. Birlikdə bu rənglər Türk dünyasının zəngin mədəni irsini ifadə edir. Bu, sadəcə, nağıllar kitabı deyil, eyni zamanda bizim ortaq dəyərlərimizdir. Çünki hər bir nağılda mərhəmətə, barışa, qarşılıqlı hörmətə, biliyə çağırış səslənir. Digər tərəfdən bu, Türk dünyasının adət-ənənələridir, çünki hər bir nağılda dədə-babalarımızdan, əcdadlarımızdan qalan adət-ənənələrimiz var. Kitabın özəlliyi həm də ondan ibarətdir ki, hər bir nağılı balaca azərbaycanlı rəssam Məryəm Quluzadənin illüstrasiyaları bəzəyir".




Mərasim çərçivəsində F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Bakı şəhər 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzi şagirdlərinin təqdimatında nağıl qəhrəmanlarının personajları canlandırılıb, türkdilli ölkələrin milli rəqsləri nümayiş olunub.

Tədbir iştirakçılarına Fond tərəfindən sertifikatlar verilib. "Türk dünyasının göy qurşağı" kitabına Fondda üzv və müşahidəçi statusunda təmsil olunan ölkələrin – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Türkmənistan, eləcə də Macarıstanın xalq nağılları daxildir.

# Azad Şuşa, kamança sənətimiz və şuşalı bəstəkarlar

## "Bu layihəni geniş formatda, yenilənmiş versiyada xaricdə də təqdim və təbliğ etməyi düşünürəm"

Xəbər verdiyimiz kimi, bu günlərdə Əməkdar artist, Prezident mükafatçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Toğrul Əsədullayev "Kamança Şuşanın səsidir" musiqi layihəsini təqdim edib. Kamança ifaçısı ilə görüşüb həm yeni layihəsi haqqında, həm də yaradıcılığındakı yeniliklər barədə həmsöhbət olduq.

*– "Kamança Şuşanın səsidir" layihəsi necə yarandı?*

– Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra bir musiqiçi olaraq tarixi Qələbəmizə sənət töhfəsi vermək istədim. Şuşalı bəstəkarların əsərlərindən ibarət silsilə ifalar yazdırdım. Nəticədə Azərbaycanın mədəniyyət beşiyi Şuşanın işğaldan azad olunmasına ithaf etdiyim "Kamança Şuşanın səsidir" adlı layihəni tamamladım.

*– Albomda neçə əsər yer alır?*

– Alboma Əfrasiyab Bədəlbəyli, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov və Vasif Adıgözəlovun ümumilikdə səkkiz əsərini daxil etmişəm. Kamançanın ruhuna yaxın əsərləri seçdim. Çalışdım ki, dinləyicilər yorulmasın. Albomda bəstəkarlar, kamança sənətimizlə bağlı geniş məlumat və öz yaradıcılığım haqqında məlumat da yer alıb. Amma burada əsas məqsəd Şuşa haqqında, bu şəhərdə dünyaya gələn bəstəkarlar barədə məlumatın yer almasıdır. Bu bir ithafdır. Layihəni genişləndirib bir qədər başqa formatda təqdim etməyi düşünürəm.

*– Bu əsərlərdən əvvəllər solo kamanda ifa edilən olubmu?*

– Bir-iki əsər ifa edilib. Digərləri isə ilk dəfə kamançada solo olaraq təqdim edilir. "Dumanlı Təbriz" tamaşasından Ə.Bədəlbəylinin "Qönçələbin mahnısı" və S.Ələsgərovun "Vətənimdir" əsərini universitetdə təhsil aldığımız illərdə ifa etmişik. Məsələn, Niyazinin "Vətən nəğməsi" və "Arzu" əsərlərini əsasən vokalçılar ifa edirlər. Lakin burada ilk dəfə solo kamançada səsləndirdik. Albomun ərsəyə gəlməsində mənə dəstək olan "Buta" instrumental ansamblına, bədii rəhbər tarzən Rövşən Qurbanova və pianoçu, Əməkdar artist Nərgiz Əliyevaya təşəkkürümü bildirirəm.



*– Layihəni daha geniş təqdim etmək fikrində olduğunuzu dediniz. Hansı formatda nəzərdə tutursunuz?*

– Kamança haqqında solo ifalar azdır. Sırf Şuşa və Qələbəmizlə bağlı layihə şəklində daha geniş formatda, böyük tirajla, yenilənmiş versiyada xaricdə də təqdim və təbliğ etməyi düşünürəm.

*– Son vaxtlar Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət silsilə ifalar da lentə aldırmısınız...*

– Bəli, "Youtube" kanalım fəaliyyətdədir. Albomda yer almayan Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət ifalar burada yayımlanır. Ölkəmizdə bu işlə məşğul olan şirkət var, onlar bu işdə mənə kömək göstərirlər. Bizim ifalar internet üzərindən bütün dünyaya yayımlanmaq üçün reallaşdırılır. Hər bir ölkənin bu sahədə öz resursları var və həmin şirkət ifaları hər bir ölkəyə məxsus platformada yerləşdirir. Bu işi mən məhz Azərbaycan musiqisi və kamança sənətinin tanıdılması baxımından vacib hesab edirəm.

*– Kamança ifaçılığının hazırkı vəziyyəti barədə nə deyə bilərsiniz?*

– Görkəmli kamança ifaçımız Habil Əliyevdən sonra sırf solo olaraq bu iş bir az dayanmış kimi görünür. Bizdə müşayiət daha çox inkişaf etdi. Mən özüm də müşayiətçi kimi çalışıram. Amma solonu da diqqətdən kənarda qoymaq lazım deyil. Heç kim birdən-birə müşayiətçi olmur. Hər kəs solodan başlayır. Müşayiətçi olmaq da çətindir. Soloda da güclü olmasan, səni heç vaxt hər hansı bir xanəndə, ansambl, orkestr müşayiətçi kimi qəbul etməz. Musiqi məktəbindən başlayaraq ali məktəbə qədər özümüzü soloda nümayiş etdirdik deyə, bizi müşayiətçi kimi də qəbil etdilər.

*– Hansı korifey sənətkarları müşayiət etmisiniz?*

– Çox şadam ki, görkəmli xanəndə, mərhumlik Yaqub Məmmədovdan bu yana, demək olar ki, əksər xanəndələrimizi müşayiət etmişəm. Sara Qədimova, Arif Babayev, Əlibaba Məmmədov, Lütfiyar İmanov, Ağaxan Abdullayev, Vahid Abdullayevdən bu gün səhnədə olan xanəndələrə qədər.

*– Bəs solo ifaya marağınızın əsasında nə dayanır?*

– Sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası üçün "Muğam sənətinin inkişafında kamança ifaçılarının rolu və əhəmiyyəti" mövzusunda axtarışlar zamanı bizim sənət tariximizdə nə qədər kamança ifaçılarının izi olduğunu və bu insanların bəzilərinin adının unudulduğunu gördüm. XX əsrdə Habil Əliyev kamançanı solo şəklində daha qabarıq nümayiş etdirdi. Ona qədər isə bizim sənətdə çoxsaylı sənətkarlar da yetişib. Qılman Salahov, Fərhad Dadaşov, Elman Bədəlov, Tələt Bakıxanov, Mütəllim Novruzov, Ədalət Vəzirov kimi sənətkarlar bu sənətdə iz qoyublar. Çalışıraq ki, biz də o yolu davam etdirək. Onu da xüsusi vurğulamaq istərdim ki, dövlətimiz tərəfindən kamançanın UNESCO siyahısına daxil edilməsi biz ifaçılar üçün böyük bir dəstəkdir. Dünyanın dörd bir tərəfində fəxrlə öz sənətimizi təbliğ edirik. Şəxsən mən bu gün bir ifaçı olaraq tanınmağımda, formalaşmağımda, sevilməyimdə dövlətimizə təşəkkür edirəm. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi bizə hər zaman diqqət göstərib. Fəxri ad verilib, mükafat verilib. Rəsmi tədbirlər, səfərlər, dövlət kanallarında çıxışlarımla kamança sənətimizi təbliğ etməyimlə qürur duyuram.

*– Bir az da pedaqoji fəaliyyətinizdən danışaq.*

– 1998-ci ildən pedaqoji fəaliyyətlə məşğulam. 12 nömrəli musiqi məktəbində 10 il dərs demişəm. 2008-ci ildən Azərbaycan Milli Konservatoriyasında və hazırda Mədəniyyət və İncəsənət Universitetində çalışıram. Beynəlxalq Muğam Mərkəzinin də solistiyəm. Pandemiya biz musiqiçilərə çox böyük mənfi təsir etdi. Onlayn dərslər zamanı çox çətinliklərimiz olur. Müxtəlif əlaqə proqramları 3 saniyə gecikmə ilə müşayiət olunduğundan dərslərə maneə yaradır. Amma yenə də çalışdıq ki, bu çətinliklərin öhdəsindən gələk. İnanıram ki, gələn tədris ilindən bütün bu onlayn konsert və tədris tarixə dönəcək.

*– Bir daha sizi yeni layihəniz münasibətilə təbrik edir, uğurlar arzulayırıq.*

– Çox sağ olun. Bu layihə mənim üçün çox mühümdür. Şuşanın azadlığı, kamança sənətimiz və şuşalı bəstəkarlar. Kompozisiya şəklində təqdim etdiyim bu layihənin uğurlu olacağına əminəm.

**Lalə AZƏRİ**

# "Üç alov"un daha bir qrup laureatı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Müslüm Maqomayev adına 26 nömrəli onbirillik Musiqi məktəbinin qanun sinfinin şagirdləri Təhsil Nazirliyinin dəstəyi və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Üç alov" uşaq və gənclərin onlayn II Beynəlxalq folklor, klassik və müasir yaradıcılıq festivalında iştirak ediblər.

Yaradıcılıq festivalının əsas məqsədi musiqi mədəniyyətinin inkişafının təmin edilməsi, bu istiqamətdə uşaq və gənclərin bilik və bacarıqlarının genişləndirilməsi, istedadlı uşaq və gənclərin üzə çıxarılması, onların bədii-estetik səviyyəsinin yüksəldilməsidir.

Münsiflər heyətinin rəyinə əsasən, İradə Kamilovanın qanun ixtisası üzrə təhsil alan şagirdləri Mehinbanu Bayramlı və Ləman Hacıyeva II, Əli Kərimli isə III yerlərə layiq görülüblər.

Məktəbin "Buta" qanunçalanlar ansamblı isə festivalda III yerə çıxıb.

# "Su və rəng ahəngi"

## Akvarel sərgisinə əsər qəbulu davam edir

Bakıda açılacaq "Su və rəng ahəngi – 2021" adlı sərgi üçün əsər qəbulu davam edir. Sərginin iyulun 15-də Xətai Sənət Mərkəzində açılması nəzərdə tutulub.




Layihə Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə reallaşacaq.

Sərgiyə 18 yaşdan yuxarı rəssamlar qatıla bilər. Bütün işlər sulu boya ilə yerinə yetirilməli, orijinal olmalı və başqa rəssamların işlərinin surətləri olmamalıdır. Sərgi üçün işlər Beynəlxalq Sulu boya Cəmiyyəti Azərbaycan nümayəndəliyi – "İWS Azerbaijan"ın bədii şurası tərəfindən seçiləcək.

İştirak etmək istəyənlər əl işlərinin fotolarını iyunun 30-dək iwsazerbaijan@gmail.com elektron ünvanına göndərə bilərlər. Sərgidə iştirak edəcək rəssamların siyahısı iyulun 3-də Xətai Sənət Mərkəzinin "Facebook" və "İnstagram" səhifələrində paylaşılacaq.

Seçilmiş əsərlər iyulun 10-dək Xətai Sənət Mərkəzində yerləşən "İWS Baku Khatai Art Center"ə təhvil verilməlidir.

# BXA və Antalya AKEV Universiteti arasında əməkdaşlıq protokolu imzalanıb

Türkiyənin Antalya AKEV Universitetinin rektoru Kamilə Akgül Bakı Xoreoqrafiya Akademiyasının (BXA) qonağı olub.



Universitet Antalya Mədəniyyət və Təhsil Vəqfi (Antalya Kültür ve Eğitim Vakfı – AKEV) tərəfindən qurulub.

BXA-nın tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən Əziz Qarayusifli qonağı pedaqoji heyətlə tanış edib, akademiyada həyata keçirilən islahatlar, tədris prosesi barədə məlumat verib.

Kamilə Akgül səmimi qarşılanmaya görə təşəkkür edərək, BXA ilə Antalya AKEV Universiteti arasında əməkdaşlığın yaradılması üçün bu görüşün vacibliyindən danışıb.

Görüş zamanı gələcəkdə həyata keçirilə biləcək birgə tədbirlər, tələbə və müəllim mübadiləsi, ustad dərsləri barədə fikirlər bildirilib. Qeyd olunub ki, yaxın zamanda iki ali təhsil müəssisəsinin təşəbbüsü ilə ortaq rəqs layihəsi keçirilə bilər. Bu kimi layihələr iki ölkə arasında mədəni əlaqələrə də töhfə olar.

Görüşün sonunda Bakı Xoreoqrafiya Akademiyası ilə Antalya AKEV Universiteti arasında əməkdaşlıq protokolu imzalanıb.

# Müzəffər Ordumuzun bayramına musiqi töhfələri

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Müdafiə Nazirliyinin Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə bayram konserti keçirilib.



Daşqın Sabiroğlunun aparıcılığı ilə gerçəkləşən konsertdə xanəndə Mirələm Mirələmov, aşıq Əli Quliyev, müğənnilərdən Rövşən Əsgərzadə, Tahir Quliyev, Amil Babayev, Asif Xasanoğlu, Aygün Ağayeva, Elvin Babazadə rəngarəng musiqi nömrələri ilə, "Aysel" rəqs ansamblı isə zərif milli rəqslərimizlə hərbçilərin zövqünü oxşayıb.

Konsertin sonunda Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi tərəfindən sənətçilərə fəxri fərmanlar təqdim edilib.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı və Suraxanı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Zığ qəsəbə Mədəniyyət evi "Zəfər marşı" adlı musiqili layihə ərsəyə gətirib.

Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində şanlı Qələbəsinə həsr olunan "Zəfər marşı" mayor Fariz Məmmədzadənin dirijorluğu ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Orkestrinin və Əməkdar müəllim Təranə Yusifovanın rəhbərliyi ilə Azərbaycan Milli Konservatoriyası tələbə xorunun ifasında səsləndirilib.

"Zəfər marşı"nın sözləri Gülnarə Allahverdiyevanın, musiqisi isə Məhəmməd Allahverdiyevindir. Layihənin prodüseri Zığ qəsəbə Mədəniyyət evinin direktoru Nurlan Həsənzadədir.

# "Əsgər marşı" yeni aranjimanda təqdim olunub

Tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Cavanşir Quliyevin "Əsgər marşı" əsəri Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşəbbüsü ilə 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə yeni aranjimanda təqdim olunub.

İdarədən bildirilib ki, Vətən müharibəsində şanlı Qələbəmizdən ruhlanaraq yenidən lentə alınan "Əsgər marşı" mahnısı Əvəz Muradov tərəfindən aranjiman edilib.

Mahnı Azərbaycan Dövlət Akademik Filarmoniyasının nəzdində fəaliyyət göstərən Dövlət Xor Kapellasının ifasında səslənib.

Cavanşir Quliyev "Əsgər marşı"nı 1992-ci ildə bəstələyib.

# Bakı Dövlət Sirki orkestrinin növbəti bayram proqramı

Bakı Dövlət Sirkinin orkestr heyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 103-cü ildönümü münasibətilə iyunun 26-da paytaxtdakı Zabitlər bağında konsert proqramı ilə çıxış edib.



Qələbə sevincli bu bayramı paylaşmaq məqsədilə təqdim olunan konsertdə vətənpərvərlik ruhlu musiqi nömrələri səsləndirilib.

Orkestrin ifa etdiyi musiqilər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər qazanan Azərbaycan Ordusunun şücaətini, qüdrətini, qəhrəman əsgər və zabitlərimizin rəşadətini tərənnüm edib.

# Hesabat konserti onlayn formatda təqdim edilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi 24 nömrəli onbirillik Musiqi məktəbi 2020-2021-ci tədris ili üzrə yekun hesabat konsertini onlayn formatda təqdim edib.

İdarədən bildirilib ki, məktəbin şagirdləri bir-birindən fərqli nömrələrlə həm Azərbaycan, həm də xarici ölkə bəstəkarlarının əsərlərini səsləndiriblər.

Qeyd edək ki, məktəb 2020-2021-ci tədris ilini müvəffəqiyyətlə tamamlayıb, bir çox şagirdlər həm beynəlxalq, həm də respublika müsabiqələrində uğurla iştirak edərək laureat adına layiq görülüblər. Videoçarx məktəbin sosial şəbəkə hesabları üzərindən paylaşılıb.

# Vətən müharibəsinin şəhid həkimi

## Rasim Abdullayev sözə də həmdəm idi

44 günlük II Qarabağ müharibəsində üç minə yaxın şəhid Vətən övladının sırasında 10 hərbi həkimimiz də var. Onların arasında ən yüksək rütbəlisi tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayevdir.



Rasim Yaqub oğlu Abdullayev 1975-ci il fevralın 21-də Kəlbəcər rayonunun Milli kəndində anadan olub. Onun babaları 1918-ci ildə erməni zülmü üzündən Azərbaycanın qədim Dərələyəz mahalından qaçqın düşərək Kəlbəcərin Milli kəndində pənah gətiriblər. Rasim 1982-1990-cı illərdə Milli kəndə orta məktəbdə təhsil alıb. Orta məktəbin son siniflərini isə Kəlbəcər şəhər 1 saylı orta məktəbdə oxuyub. O məktəbi bitirəndə Ermənistanın ölkəmizə qarşı işğalçılıq müharibəsinin ən qızğın vaxtları idi. Həmin mürəkkəb zamanda, 1992-ci ildə Rasim Azərbaycan Tibb Universitetinə qəbul olunur. Onun ailənin qismətinə daha bir didərginlik vardı. Ermənistan silahlı birləşmələri 1993-cü ilin 2 aprelində Kəlbəcəri işğal edəndə Rasimin ailəsi də isti ocağından qaçmalı olur.

Rasim 1998-ci ildə təhsilini başa vurur və 2000-ci ilə qədər Sumqayıt şəhər 1 nömrəli xəstəxanasında internatura (tibbi təcrübə) keçir. Həmin il könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin tibb xidmətində hərbi tibb qulluqçusu kimi xidmətə başlayır. 2005–2015-ci illərdə Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının Terapiya şöbəsində çalışır, bir müddət sonra şöbənin rəisi olur. Xidmətinin 10 və 15 illiklərində uğurlu fəaliyyəti qiymətləndirilir, "Qüsursuz xidmətə görə" medalının 3-cü və 2-ci dərəcələri ilə təltif edilir. 2015-ci ildən 2016-cı ilin sonunadək Gəncədə yerləşən hərbi poliklinikada rəis vəzifəsində çalışan Rasim Abdullayev dördgünlük Aprel döyüşlərində müharibənin qaynar nöqtələrində olur, yaralı hərbçilərə yerindəcə tibbi yardım göstərir.

2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidmətinin rəisi vəzifəsinə təyin olunan Rasim Abdullayev 2020-ci ilin əvvəllərinə qədər bu vəzifəni yerinə yetirir. O daha sonra N saylı hərbi hissədə tibb bölüyünün komandiri vəzifəsinə təyin edilir və Vətən müharibəsi başlayana qədər burada fəaliyyət göstərir.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayev də qızğın döyüşlərin getdiyi Hadrut qəsəbəsi istiqamətində yaralı hərbçilərə yardım göstərir. O, ailəsi ilə sonuncu dəfə noyabrın 9-da telefonla əlaqə saxlayır, özü də işğaldan yeni azad olunmuş Şuşadan...

Müharibənin son saatlarında Şuşa istiqamətində qalmış yaralıların çıxarılması ilə bağlı komandanlıq tərəfindən tapşırıq gəlir. Rasim Abdullayev hərbi tibb maşını ilə Hadrut-Şuşa yoluna çıxır. Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində düşmənin pusqusuna düşürlər və ağır yaralanan Rasim Abdullayev şəhid olur. Fədakar həkim Bakıda II Şəhidlər xiyabanında torpağa tapşırılıb. Qəhrəman şəhidin Miryaqub və İslam adlı oğulları yadigar qalıb.

Ölkə başçısının müvafiq sərəncamları ilə Rasim Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Rasim Abdullayev sözə həmdəm idi. Poeziyanı çox sevir, özü də hərdən şeirlər qələmə alırdı. Şəhidimizin 40-dan çox şeiri və bir hekayəsi var. Şeirlərindən ikisini təqdim edirik.

### Tələsmə, gələrəm günün birində...

*Çatmır qulağıma səsin-sorağın,*
*Tutulub qulağım kar olub, gülüm,*
*Mən sənə könlümü verib gedəndən*
*Gen dünya başıma dar olub, gülüm.*

*Burda boğuluram həsrət içində,*
*Orda yaşayırsan necə, bilmirəm?!*
*Burda gecələrin biri bir ildi,*
*Orda ötüşürmü gecə, bilmirəm?!*

*Ayrıldıq xatirən qaldı yadımda,*
*O gündən üzümə qəm ələnibdi,*
*Getdiyin yollara düşən damcılar,*
*Mənim göz yaşımdı səpələnibdi.*

*Qoru o sevdanı, qoru bir az da,*
*Məsum körpə kimi saxla gəlincə.*
*Sevgimdən xatirə tər çiçək kimi*
*Qara saçlarına bağla gəlincə.*

*Tələsmə, gələrəm günün birində,*
*Gəlib qapınıza baxıb gedərəm.*
*Darıxıb yanına qayıtmaq üçün,*
*Təzədən orduya çıxıb gedərəm.*

*Ayrılıq yenə də qismətim oldu,*
*Kor olmuş taleyim belədi, neynim?!*
*Qaralmış külüm də göyə sovruldu,*
*Fələk öz bildiyin elədi, neynim?!*

### Dedim ürəyimi yadigar saxla

*Demirəm bir daha sən yaşat məni,*
*O məni yaşadan günləri qaytar.*
*Həsrətin buzunu əritməz günəş,*
*O buzu yandıran gözləri qaytar.*

*Nə məni yada sal, nə də ki ağla,*
*Üst-üstə qalansın bu dağ, o dağla,*
*Dedim ürəyimi yadigar saxla,*
*Demədim sındırıb tez geri qaytar.*

*Rasiməm, zil idim, indi bəməm mən,*
*Qəlbi para-para, gözü nəməm mən.*
*Onsuz da əzəldən dərd çəkənəm mən,*
*Sevinci apardın, kədəri qaytar.*

# "Qarabağ müharibəsi qəhrəmanları"

## Mərkəzi Elmi Kitabxanada fond yaradılıb

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında "Qarabağ müharibəsi qəhrəmanları" fondu təşkil edilib. İyunun 24-də fondun açılış mərasimi keçirilib.

Tədbirdə MEK-in baş direktoru, professor Məmməd Əliyev, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Milli Məclisin deputatları Anar İsgəndərov, Tamam Cəfərova və başqaları çıxış ediblər.

Qeyd edilib ki, Azərbaycan kitabxana sistemində ilk dəfə MEK-də yaradılan fondun məqsədi Qarabağ müharibəsinə həsr olunan sənədləri sistemli şəkildə toplayaraq mühafizə etməkdir. Fondda Birinci və İkinci Qarabağ müharibələrinə həsr olunmuş kitablar, məqalələr, müsahibələr, fotolar, televiziya verilişləri, sənədli və bədii filmlər toplanacaq. Həmçinin gələcəkdə bu mövzuya həsr olunacaq nəşrlər fonda daxil edilərək oxucuların istifadəsinə veriləcək.




Fonda rəhbərlik Vətən müharibəsinin "Zəfər" ordenli şəhidi, polkovnik Babək Səmidlinin bacısı, MEK-in əməkdaşı Röksanə Səfərzadəyə həvalə olunub.

Diqqətə çatdırılıb ki, fondun zənginləşdirilməsi istiqamətində müharibə iştirakçıları və ailələri ilə əlaqələr qurulub. Bundan əlavə, fondda olan nəşrlər və ədəbiyyatlar e-kataloqa daxil edilərək rəqəmsallaşdırılıb. Elektron bazada Azərbaycan və xarici dillərdə informasiya resursları, biblioqrafik məlumatlar, Birinci və İkinci Qarabağ müharibələrinə dair aparılan tədqiqatlar yer alır.

Tədbirdə, həmçinin şəhid polkovnik Babək Səmidlinin qardaşı, Birinci Qarabağ müharibəsinin veteranı, polkovnik-leytenant Müşviq Səmidli, qazi Ceyhun Məmmədov, şəhid Vüsal Kazımovun atası Kamran Kazımov, dosent Xanım Sultanova, Milli Qəhrəman, şəhid İlqar Mirzəyevin oğlu Elvin Mirzəyev və başqaları çıxış ediblər.

Beynəlxalq Muğam Mərkəzinin solisti Almaxanım Əhmədli "Xudayar təsnifi"ni və gənc xanəndə Anar Məmmədov "Qarabağ" mahnısını ifa edib.

Sonra iştirakçılar fondla tanış olublar. Fondda ilk mərhələdə 500-dən artıq şəhid, qazi və müharibə iştirakçılarının həyat yolunu əks etdirən məlumatlar, şəxsi sənədlər, 1000-dən artıq kitab, qəzet, jurnal, məqalə, sənədli və bədii filmlər toplanaraq oxucuların istifadəsinə verilib.

# Mədəniyyət və İncəsənət Universitetində "Zəfər" lövhəsi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə bu ali məktəbin Vətən müharibəsində şəhid olmuş məzunlarının, eləcə də müharibə iştirakçısı olan əməkdaş, tələbə və məzunlarının şərəfinə hazırlanmış "Zəfər" lövhəsinin açılışı olub.

Universitetin rektoru, professor Ceyran Mahmudova 2020-ci ilin Vətən müharibəsində ADMİU-nun 50-dən çox əməkdaş, tələbə və məzunlarının iştirak etdiyini diqqətə çatdırıb: "Üç məzunumuz şəhidlik zirvəsinə ucalıb. Bir sıra döyüşçülərimiz Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən medallarla təltif olunub. Biz universitet olaraq onların hər biri ilə fəxr edirik. Müharibə dövründə necə onlara dəstək olmağa çalışırdıqsa, bundan sonra da hər zaman yanlarında olmağa çalışacağıq. Çünki bu, bizim vətəndaşlıq borcumuzdur. Onların sayəsində Azərbaycan xalqının 30 illik torpaq həsrətinə son qoyuldu".



ADMİU-nun prorektoru, professor Gülşən Əliyeva-Kəngərli bildirib ki, 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən torpaqlarımız erməni işğalından azad olundu və biz Vətən müharibəsində şanlı Qələbə qazandıq. Şəhidlik də, qazilik də şərəf zirvəsidir. İgid oğullarımız özlərini düşünmədən bu zirvəyə atıldılar və qalibiyyət qazandılar.

Mərasimdə daha sonra prorektor Təriqəddin Həmidov, Rəssamlıq fakültəsinin dekanı Sevil Kərimova, universitetin müəllimlərindən Nigar Rüstəmova, Əli Əmirli, Gülşad Baxşıyeva çıxış ediblər.

Vətən müharibəsi iştirakçıları olmuş Azər Həsənov, Şahmar Məmmədov, Tərlan Əsgərli, Röyal Allahverdiyev, Ceyhun Əlizadə, Əli Səlimov, Cavid Arzumanov, Xankişi Bağırov universitet rəhbərliyindən daim diqqət və qayğı gördüklərini bildirib, "Zəfər" lövhəsinin yaradılmasını yüksək dəyərləndiriblər.

# Aşıq sənətinin Şakir gözəlləməsi

XX əsrdə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələri arasında fərdi ifaçılıq keyfiyyətləri ilə seçilən sənətkarlardan biri də Aşıq Şakir olub. Şirvan aşıq mühitinin yeni ifaçılıq və yaradıcılıq baxımından formalaşmasında məxsusi xidmətləri olan ustad saz havaları ilə muğamlarımızı yüksək peşəkarlıqla sintez edib. Məlahətli səsi, şaqraq zəngulələri ilə xalq arasında böyük sevgi qazanan sənətkar aşıq şeirinin müxtəlif şəkillərində gözəl nümunələr də yaradıb.

Şakir Şahverdi oğlu Hacıyev 1922-ci ildə Ağsu rayonunun Xəlilli kəndində anadan olub. Gənc ikən atası oğlunun saz sənətinə həvəsi olduğunu hiss edir və onu göyçaylı aşıq Mürsələ şəyird verir. Şakir ustadından ulu sənətin sirlərini öyrənir. El şənliklərində və rəsmi tədbirlərdə yaxından iştirak edir. Şirvanda istedadlı gənc aşıq kimi tanınır.

Aşıq Şakirin də gənclik illəri çətin və məşəqqətli bir dövrə düşür. 1941–1945-ci illər müharibəsi başlayır. Şakir bir müddət sazını süngü ilə əvəz edir. Ordudan tərxis olunduqdan sonra Kürdəmir rayon Mədəniyyət evində əmək fəaliyyətinə başlayır. Məlahətli səsi, gözəl ifaları ilə el şənliklərinin yaraşığına çevrilir. Sənətinin səsi-sorağı rayonun hüdudlarını aşır, respublika səviyyəsində tanınır. Bakı şəhərindən tədbirlərə, konsertlərə dəvətlər alır. Musiqisevərlər və zəhmətkeşlər qarşısında maraqlı repertuarla çıxışlar edir.

Öz üzərində çalışan sənətkar mütaliəsini genişləndirir, "Valeh və Zərnigar", "Şah İsmayıl", "Tahir və Zöhrə", "Xəstə Qasım", "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Leyli və Məcnun", "Əmrah", "Koroğlu" dastanlarını öyrənir, məclislərdə ifa edir. Eyni zamanda özü də "Qırx il" və "Etibarlı dost" adlı dastanları yaradır.



Sənətkara 1950-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsi tərəfindən "Xalq aşığı" fəxri adı verilir. 1955-ci ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilir. 1961-ci ildə respublika aşıqlarının III qurultayının nümayəndəsi olur. Azərbaycanın sənət və ədəbiyyat korifeylərindən Bülbülün, Fikrət Əmirovun, Niyazinin, Mirzə İbrahimovun iştirak etdiyi qurultayda o da məruzə ilə çıxış edir.

Aşıq Şakir Moskvada keçirilən mədəniyyət və incəsənət ongünlüklərində respublikamızı layiqincə təmsil edib. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə 1967-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülən sənətkar həmin il ümumittifaq özfəaliyyət incəsənət festivalının respublika baxışında, eləcə də 1972-ci ildə keçirilən respublika miqyaslı müsabiqədə I dərəcəli diploma təltif olunub.

Yüksək ifaçılıq bacarığı ilə yanaşı, 20-dək qoşma, gəraylı və müxəmməsin müəllifi olan aşığın sənət möhürü vurduğu onlarca ifası Azərbaycan Radiosunun "qızıl fond"unda saxlanılır. Xüsusilə "Kəndimiz" mahnısı bu gün də mötəbər məclislərin və el şənliklərinin bəzəyidir. Ustad aşığın ifasında şöhrət tapan "Nərgiz", "Nə bağ bildi, nə də bağban", "Maral", "Şirvan şikəstəsi", "İncəmənsin", "Səhər-səhər" və s. şux mahnıları indi də dinləyicilərin könlünü oxşayır.

Aşıq Şakirin ifa tərzi, bənzərsiz zəngulələri haqqında tanınmış musiqiçilər, elm xadimləri tərəfindən yüksək qiymətləndirilib. Xalq artisti Əlibaba Məmmədov deyib: "Aşıq sənətimizin çox görkəmli nümayəndələrini görmüşəm. Onlardan ikisi qəlbimə çox yaxın olub. Biri rəhmətlik aşıq Şakir, ikincisi rəhmətlik aşıq Pənah idi. Hər ikisinin də bənzərsiz sənətkarlıq keyfiyyətləri vardı. Aşıq Şakir muğam ifaçılığı ilə də seçilirdi. Əruzu yaxşı bilirdi. Səs imkanları çox geniş idi. Gözəl ifası ilə yanaşı, həm də bir aşıq kimi yaxşı oynamaq qabiliyyəti vardı. Odur ki, aşıq Şakir sənətinə, sözün əsl mənasında, aşıq idim. İstedadlı sənətkar yaxın dostum olub. O, yaxşı bilirdi ki, mən onun pərəstişkarıyam. Onu böyük sənətkar hesab edirəm".

Şair Azad Talışoğlu da sənətkarın yaradıcılığı haqqında xoş misralar qoşub:

*Kürlə bağlanıbdır adı bu yerin,*
*Şöhrəti ucadır, hörməti dərin,*
*Nəğməkar övladı – aşıq Şakirin,*
*"Şirvan şikəstəsi" Kürdəmirdədir.*

Aşıq Şakir 10 aprel 1979-cu ildə, yaradıcılığının coşqun çağlarında, 57 yaşında vəfat edib. Sənətkarın şeirləri "Aşıqlar" və "Aşıq sözü" kitab-toplularında işıq üzü görüb. Yaşadığı küçəyə və Kürdəmir rayonunda Mədəniyyət evinə onun adı verilib.

**Savalan FƏRƏCOV**

# Gənc arxivçilərin yay məktəbi

Qazaxıstanın Prezident Arxivi, Rusiya Dövlət Humanitar Universiteti və Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin birgə təşkilatçılığı ilə MDB ölkələri üzrə gənc arxivçilərin IV Yay məktəbi təşkil olunub.

Milli Arxiv İdarəsindən bildirilib ki, tədbir arxivçilərin ixtisaslarının artırılması, yeni texnologiyalarla tanışlıq, müasir metodların arxiv işinə tətbiqi və arxiv işi sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi məqsədilə reallaşıb.

Onlayn formatda keçirilən Yay məktəbi "Elektron sənədlərlə iş: nəzəriyyə və praktika" mövzusuna həsr edilib. Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan, Cənubi Koreya, Finlandiya və digər ölkələrdən 250-dən çox arxivçinin qatıldığı tədbirdə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin Sənədlərin nəşri və istifadəsi şöbəsinin müdiri, İnformasiya təminatı və elektron xidmətlər mərkəzinin rəhbəri Natiq Eminov da iştirak edib.

# Bədii düşüncədə Qarabağ

"Azərkitab" kitab mərkəzinin nəzdində fəaliyyət göstərən Cabir Novruz adına poeziya evində yazıçı-publisist Zemfira Məhərrəmlinin "Bədii düşüncədə Qarabağ" adlı kitabın təqdimatı olub.

İyunun 25-də keçirilən tədbirdən öncə müəllif kitabını imzalayaraq oxuculara hədiyyə edib. "Azərkitab" kitab mərkəzinin rəhbəri Sabir Həsənov nəşr haqqında məlumat verib.

Şair-tərcüməçi, Əməkdar mədəniyyət işçisi Vaqif Bəhmənli qeyd edib ki, "Bədii düşüncədə Qarabağ" kitabı taleyimizə yazılan 30 illik savaşın başlanğıcından 44 günlük Vətən müharibəsinədək olan bir dövrü əhatə edir. Bu müqəddəs mövzu və onunla bağlı yaranmış çağdaş ədəbiyyatımız ilk dəfə olaraq kitabda geniş təhlil olunur: "Kitab bizim Qarabağ mövzusunda yazan ədiblərimizin yaradıcılığına işıq salır. Kitab 31 tanınmış sənətkarın əsərinə müraciətlə yazılıb. Yazıçının məqsəd-məramını üzə çıxarmaq, onun nə demək istədiyini anlamaq peşəkarlıq tələb edən məsələlərdir. Düşünürəm ki, Zemfira xanım kitabda bütün bunları çox ustalıqla bacarıb".




Millət vəkili, yazıçı Aqil Abbas, yazıçı Seyran Səxavət, şair Qəşəm Nəcəfzadə və digər çıxış edənlər müəllifin yaradıcılığından və kitabın məziyyətlərindən söz açıblar. Belə kitabların respublikanın müxtəlif regionlarında, eyni zamanda işğaldan azad edilən bölgələrdə yaradılacaq kitabxanalara verilməsinin vacibliyi qeyd edilib.

Sonda müəllif kitab haqqında fikirlərini bölüşən hər kəsə minnətdarlığını bildirib.

Kitabın redaktoru şair-tərcüməçi Vaqif Bəhmənli, ön sözün müəllifi isə "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turandır.

# Bəşəri tarixə bağlı Azərbaycan toponimləri

AMEA akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun dissertantı, Türk dünyasının toponimik tədqiqatçıları arasında özünün dəst-xətti ilə seçilən, qayaüstü rəsmlərin və qədim xalçaların yorulmaz araşdırıcısı Şakir Qabıssanlının "Bəşəri tarixə bağlı Azərbaycan toponimləri" adlı kitabı çapdan çıxıb.

Kitab AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya və Folklor institutları Elmi şuralarının qərarı ilə nəşr edilib. Əsərin elmi redaktoru Coğrafiya İnstitutunun şöbə müdiri, dosent Zaur İmranidir.

Müəllif kitabında özünün fərqli yanaşmaları ilə bəşər tarixinin ilkin qaynaqlarına dair toponimlərin Azərbaycanla bağlılığını önə çəkir, mülahizələrini dini və elmi əsaslarla sübut etməyə çalışır. Toponimlərin areallarının dünyaya bağlılığının Azərbaycanla əlaqələri göstərilməklə yanaşı, dilçilik, fəlsəfi və tarixi baxımdan başlanğıc təkanının Azərbaycandan başlanması tarixi faktlarla irəli sürülür. Digər tərəfdən, Azərbaycanla bağlı qədim toponimlərin saxtalaşdırılma amilləri üzə çıxarılır, qədim tarixi adların mifoloji-fəlsəfi mənaları özünə qaytarılır. Kitabda bir çox toponimlərin dünyanın ilk petroqlifləri olan Qobustan qayaüstü təsvirlərinin sivil davamı sayılan xalça işarələri ilə əlaqəsi məntiqi mənalarla önə çəkilir.

## Nizami sözündən incilər

# Özündən alçaqla çəkin qovğadan...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Qafil adam övladı kor deyildirsə, gerçək,*
*Arıdan, qarışqadan ibrət götürsün gərək.*

**("Sirlər xəzinəsi")**

*Günəşin ordusu boy versə əgər,*
*Xəlvəti çəkilər qaçaq kölgələr.*

**("Leyli və Məcnun")**




*Bir gün bar götürər ağac əkənlər,*
*Xəznə apararlar əmək çəkənlər.*
*Tənək ağlamasa vaxtında zar-zar,*
*Yetirməz axırda sevinclərlə bar.*

**("Yeddi gözəl")**

*Adil ol, şad yaşa ömrünü bütün,*
*Olmasın əlində açılmaz düyün.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*Kin ilə, sülh ilə sınanmış cahan,*
*Sülhündən xeyr olmuş, kinindən ziyan.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

*Özündən alçaqla çəkin qovğadan,*
*Yıxıb-yıxılmaqdan incik olarsan.*
*Böyüklə vuruşda insan ad alar,*
*Alçaqla vuruşan özü alçalar.*

**("Xosrov və Şirin")**

## Yubilyar filmlər

# 50 ilin "Ən vacib müsahibə"si





Kino məntiqli məzmunu və dolğun xarakterləri sevir. Yalnız belə olarsa, ədəbi əsərlərin vizual qəhrəmanları yaddaşımızda əbədi iz salır. 50 ildir ekranlarda nümayiş olunan, geniş tamaşaçı auditoriyası tərəfindən maraqla izlənən "Ən vacib müsahibə" filmi də insan mənəviyyatını tədqiq, təhlil etdiyinə, ünsiyyətin ən vacib vasitəsi olan nəcib, ülvi hisslərin tərənnümşçüsü olduğuna görə sevilir, baxılır.

Xalq yazıçısı, nasir, dramaturq Maqsud İbrahimbəyovun əsəri əsasında ekranlaşdırılan filmdə bütün dövrlər üçün aktual olan və böyük bəlaların başlanğıcına rəvac verən biganəlik mövzusu yaradıcı heyətin peşəkar təqdimatında maraqlı priyomlarla lentə alınıb.

Filmdə təcrübəli jurnalist Zaurun qaynar həyat tərzi və gərgin iş prosesi əksini tapıb. Onu izləyərək ətrafdakılara olan münasibətini (biganəliyini) görür, vacib peşə sahibinin cəmiyyətdə baş verən proseslərə, şəxsi həyatındakı hadisələrə olan (neytral) mövqeyi fonunda çaşqınlığını izləyirik. Daim uğurlarının ardınca qaçan qəhrəmanın hadisələrə səthi yanaşması və bitərəf münasibəti nəticəsində də filmin leytmotivinə çevrilən "həyatın mənası nədədir və mən insanlar üçün nə edə bilmişəm?" sualının əyani cavabını görürük.





Milyonların sevimlisinə çevrilən kinopovestin uğurlu ekran həllinə səbəb olan amilləri uzun illər "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərən, bu filmdə rejissor assistenti işləmiş, həmçinin bir çox filmlərin icraçı prodüseri, baş prodüseri ("Hökmdarın taleyi", "Yaddaş") olmuş Vaqif Əsədullayevin dilindən eşidəcəyik.

Tanınmış kinoprodüserin dediklərindən: "Bu filmi çəkərkən ağlımıza da gəlməzdi ki, 50 il sonra onun uğuru haqqında danışacağıq. Çəkilişlər olduqca uğurlu bir mühitdə aparılırdı. Yüksək yaradıcılıq əhval-ruhiyyəsini isə, təbii ki, quruluşçu rejissor Eldar Quliyev yaradırdı.

Filmin yaranma ideyası xalq yazıçısı Yusif Səmədoğluna məxsusdur. Həmin illərdə o, kinostudiyanın baş redaktoru vəzifəsində çalışırdı. Məhz Yusif müəllimin istəyinə əsasən Eldar Quliyev Maqsud İbrahimbəyovun əsərinə müraciət etdi. Aktyorların seçimini Eldar Quliyev, Yusif Səmədoğlu, Rasim Ocaqov (quruluşçu operator) və Maqsud İbrahimbəyov edirdi. Seçim görkəmli sənətkar Adil İsgəndərovla (kinostudiyanın direktoru) razılaşdırılır, sonra isə bədii şuraya təqdim olunur və təsdiqlənirdi.

Adil İsgəndərov daxilən ziyalı və zəngin insan idi. O, istəyirdi ki, film yüksək səviyyədə alınsın. Çünki bu filmdən əvvəl kinorejissor Arif Babayevin "Gün keçdi", "Uşaqlığın son gecəsi" filmləri Azərbaycan kinosunda ziyalı filmlərin başlanğıcı kimi böyük rəğbət qazanmışdı. Buna görə də bu ənənənin davam etdirilməsi "Azərbaycanfilm"in əsas prioritetlərindən birinə çevrilmişdi.

Filmin uğurunun 90 faizi aktyor heyətindən asılı olduğuna görə onların seçiminə xüsusi diqqət yetirilirdi. Filmdə birinci rejissor assistenti kimi çalışdığım üçün Eldar Quliyev mənə Moskvaya gedib ssenarini gənc aktrisa (sonralar Gürcüstanın və Rusiyanın Xalq artisti) Ariadna Şengelayaya (Səidə rolu üçün) göstərməyimi tapşırdı. Onu məşhur sovet kinorejissoru Abram Rommun çəkdiyi "Nar bilərzik" filminə baxdıqdan sonra seçmişdik. Aktrisa həmin filmdə knyaginya Vera Şeina roluna çəkilmişdi. Şengelaya çox gözəl, istedadlı aktrisa, həm də nəzakətli və mədəni bir xanımdır. Əsasən təşkilati məsələlərə baxdığıma görə onun çəkiliş məsələləri ilə də məşğul olurdum. O, çəkilişə həmişə hazır gəlirdi, rejissor və operatorla da heç bir ziddiyyəti olmurdu.

Ümumiyyətlə, Şengelayanın bu rol üçün seçilməsi filmin uğurlarından biri idi. Filmdə bir çox məşhur Azərbaycan aktyorları, o cümlədən Xalq artistləri Məmmədrza Şeyxzamanov, Rza Təhmasib, Firəngiz Şərifova, Kamal Xudaverdiyev və digərləri çəkilirdi. Şengelayanın da filmdə iştirakı filmin ideya məzmununu bir daha dolğunlaşdırdı, tamamladı.

Baş rolu oynayan Murad Yagizarovu bu filmə qədər tamaşaçılar "Ögey ana", "Böyük dayaq", "Ulduz" filmlərindən tanıyırdılar. Bu filmdə isə o, potensialını daha geniş səpkidə göstərməyə müvəffəq oldu".

1960-70-ci illərin intellektual gəncliyi ölkənin ictimai-mədəni həyatında intibah mərhələsini təşkil edirdi. Bu mənada istər ədəbiyyat, istərsə də mədəniyyət sahəsində dövrün inikasını yüksək və peşəkar səviyyədə təqdim etmək yaradıcı insanların əsas məqsədinə çevrilmişdi. Sənət adamları da, vətəndaş və peşə borcu olaraq fərdi təfəkkürlərinin, düşüncələrinin əksi kimi işlərində qüsursuzluğu tərcih edirdilər. Həmsöhbətimin bu məcraya yönələn söhbəti diqqətimizdən yayınmadı:

"Eldar Quliyev özünə qarşı da, bizə qarşı da çox tələbkar idi. Biz bilirdik ki, ziyalı insanların həyatından bəhs edən və məşhur aktyorların iştirak etdiyi bir filmdə çalışırıq. Buna görə də, işimizi dəqiq qururduq. Aktyorları hansısa bir çatışmazlığa görə gözlətmək, kostyumu düz seçməmək, çəkilişə gecikmək söhbəti ola bilməzdi. Filmin direktoru Rimma Abdullayeva da çəkiliş vaxtı sağlam mühit yaradırdı. Filmdə üç rejissor assistentindən birincisi mən idim. Eldar Quliyevlə Rasim Ocaqov çəkiliş meydançasına gəlməzdən əvvəl çalışırdıq ki, hər şey yerli-yerində olsun. Buna görə texniki və yaradıcı heyətlə heç bir ziddiyyət yaşanmırdı.

Kostyumların əksəriyyətini tikdirmişdik. Murad Yagizarov isə öz paltarında çəkilirdi. Ümumiyyətlə, biz həmişə dəbli və səliqəli geyinirdik. Hamımız ziyalı adamlar idik, ziyalı kimi də geyinirdik. Çəkilişdə istifadə etmək üçün Eldar müəllim öz köynəklərindən, kostyumlarından da gətirirdi. Hətta film ekranlara çıxanda filmə "Ən vacib müsahibə" yox, ən vacib Azərbaycan filmi adını qoymuşdular".

Filmin daxili dinamikasını təmin edən, hadisələrin məzmununu dərinləşdirən müxtəlif plan çəkilişləri operator işinin peşəkarlığını bir daha sübut edir. Bələdçimiz Rasim Ocaqovun iş üslubu ilə də bizi yaxından tanış edir:

"Bu film Rasim Ocaqovun operator kimi Eldar Quliyevlə işlədiyi sonuncu birgə işidir. Bundan əvvəl onlar "Bir cənub şəhərində" filmində çalışmışdılar. Həmin filmdə də peşəkar kadrlar var. Rasim Ocaqov operator kimi də, rejissor kimi də çox güclü sənətkar idi. Onun yaradıcılıq taktikasının fərqli priyomlarını keçmiş sovet məkanında da bəyənir, sevirdilər. Eldar Quliyev istedadlı idi, amma həmin illərdə sənətdə yeni və gənc idi. Rasim Ocaqov ona çox kömək edirdi. Bu filmdə də onların iş vəhdəti uğurlu alındı.

Həmin vaxt "Azərbaycanfilm" kinostudiyasına ilk dəfə olaraq 500 metrlik yapon optikası gətirmişdilər. Kamera statik dayanaraq 28 dəfə fokus dəyişmə imkanına malik idi. Eldar müəllimlə Rasim Ocaqov filmdə kinooperatorluq sənəti üçün mühüm olan bir eksperiment etdilər. Sözügedən eksperimenti bu filmə qədər heç bir filmdə etməmişdilər. Rasim səkkiz qutu lenti bir-birinə yapışdıraraq 30 dəqiqəlik səhnəni (Zaurla Səidənin parkdakı dialoqunu) bir çəkilişlə reallaşdırdı. Bir kasetə 9 dəqiqəlik material sığışır. Kadrda isə fokus 28 dəfə dəyişilirdi. Fokusların yerini dəqiqləşdirmək üçün aktyorlarla birlikdə parkda aparılacaq çəkilişi 3 gündə, 6 dəfə məşq etdilər, həmin yerlərin qeydiyyatını apardılar. 4-cü gün lentə aldılar. Zaurla Səidənin parkın bir nöqtəsindən digərinə gedib qayıtma səhnəsi 280 metr plyonkada bir planla çəkildi. Filmdə həmin səhnə olduqca maraqlıdır və fokuslar şəffafdır. Bu da Rasim Ocaqovun sənətdə böyük qazancı və növbəti bir uğurudur. Bu filmdən sonra tanınmış kinorejissor Aleksandr Sokurov "Rus xilası" filmində həmin eksperimenti etdi".

Filmin ideya məzmununa uyğun düzgün seçilmiş məkan çəkilişləri diqqət çəkdiyindən bələdçimizin həmin yerlərin dəqiq ünvanını açıqlaması yerinə düşdü:

"Filmin başlanğıcını kinostudiyanın pavilyonunda dekorasiyada çəkdik. Zaurun idarənin dəhlizində həmkarları ilə görüşüb-söhbətləşdiyi səhnələri isə Moskvada "Ostankino"nun binasında lentə aldıq. Çəkiliş üçün Eldar Quliyev, Yusif Səmədoğlu və Rasim Ocaqov Azərbaycan-sovet diplomatı və jurnalisti, SSRİ Dövlət Televiziya və Radio Verilişləri Komitəsi sədrinin birinci müavini Ənvər Məmmədovun yanına gedib, ondan şəxsən icazə almışdılar. "Ostankino"nun 5-6-cı mərtəbələri, dəhlizlər çəkiliş üçün boşaldılmışdı. Kütləvi səhnələri çəkmək üçün isə Moskvada yaşayan azərbaycanlı tanışları dəvət etmişdik. Ziyalı və işgüzar mühitin yaranması üçün bu lazım idi".

Vizual hekayələrin emosional şəkildə tamaşaçı qəlbinə yol tapmasında kino musiqilərinin rolu böyükdür. Xalq artisti, bəstəkar, müğənni Polad Bülbüloğlunun "Ən vacib müsahibə" filminə yazdığı musiqilər də hadisələri ardıcıllıqla müşayiət edir, mahnılar ("Mavi gözündə") ekran obrazlarının mənəvi dünyasını, şəxsi mövqeyini səciyyələndirir. Vaqif Əsədullayevin yaxın keçmişə üz tutan xatirələri rejissor və bəstəkarın yaradıcılıq tandeminə də aydınlıq gətirdi:

"Bu filmə musiqi yazanda Polad Bülbüloğlunun 26 yaşı var idı. Amma o artıq məşhur idi və musiqiləri radioda, televiziyada səslənirdi. Filmlərin titrlərində Polad Bülbüloğlu imzasının görünməsi insanda fərəh hissi yaradırdı. Filmin musiqiləri isə Moskvada, "Mosfilm" kinostudiyasında yazıldı.

Film bütün normalara uyğun şəkildə və tarixdə (12 aya) təhvil verildi. Onu da əlavə edim ki, həmin illərdə Moskva – SSRİ Dövlət Kinematoqrafiya Komitəsi filmləri əsasən ikinci kateqoriyada qəbul edirdi. İkinci kateqoriyalı filmlərin 350-dən 600-ə qədər nüsxəsi olurdu. "Ən vacib müsahibə" filmini də komitə yaxşı qəbul etdi və film tamaşaçılar tərəfindən də böyük rəğbətlə qarşılandı".

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

## Xatirə təqvimi — 30 iyun – 2 iyul

### Azərbaycan

**30 iyun 1812** (yeni təqvimlə 12 iyul) – Mütəfəkkir yazıçı, böyük dramaturq Mirzə Fətəli Axundzadə (1812 – 10.3. 1878) Şəkidə anadan olub. Yaradıcılığa şeirlə başlayıb. 1850-1855-ci illərdə yazdığı altı komediya ("Molla İbrahimxəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəli şah", "Lənkəran xanının vəziri", "Xırs-quldurbasan", "Hacı Qara", "Mürafiə vəkilləri") ilə milli dramaturgiyamızın, 1857-ci ildə qələmə aldığı "Aldanmış kəvakib" povesti ilə realist Azərbaycan nəsrinin təməlini qoyub.

**30 iyun 1934** – Azərbaycan Bəstəkarlar İttifaqı yaranıb. Asan Refatov ittifaqın idarə heyətinin sədri seçilib. Krım tatarı olan A.Refatov Azərbaycan Dövlət Konservatoriyasında təhsil almış, burada dərs demiş, 1931-ci ildə prorektor təyin edilmişdi. O, Bəstəkarlar İttifaqına bir il rəhbərlik edib, 1937-ci ildə repressiya olunub.

**1 iyul 1925** – Ədəbiyyatşünas alim, professor Pənah İmran oğlu Xəlilov (1925-2019) Gürcüstanın Marneuli rayonunun Sadaxlı kəndində doğulub. "Azərbaycan sovet ədəbiyyatı tarixi" üçcildliyinin həmmüəllifidir. Rus dilindən ədəbi tərcümələr edib.

**1 iyul 1937** – Əməkdar mədəniyyət işçisi, aşıq İsfəndiyar Adil oğlu Rüstəmov (1937 – 9.2.2018) Gədəbəy rayonunun Gərgər kəndində doğulub. Gədəbəydə ilk aşıq ansamblını yaradıb, müxtəlif festivallarda respublikamızı təmsil edib.

**1 iyul 1943** – Əməkdar mədəniyyət işçisi, aktyor, dublyaj üzrə rejissor Arif İzzət oğlu Həbibi (1943 – 27.1.2021) anadan olub. Uzun illər "Azərbaycanfilm" kinostudiyasının Dublyaj şöbəsində çalışıb.

**2 iyul 1892** – Yazıçı, maarif və mədəniyyət xadimi Tağı Abbas oğlu Şahbazi (Simurğ; 1892-1937) Bakıda anadan olub. Respublika Xalq maarif komissarının müavini, Azərbaycan Dövlət Universitetinin rektoru işləyib. "Ağanın kənizi", "Aldanmış ümid", "Qayçı" və s. hekayələrin müəllifidir. Repressiya qurbanıdır.

**2 iyul 1922** – Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi yanında Yeni Türk Əlifbası Komitəsi təşkil olunub. Bir il sonra, 1923-cü il oktyabrın 20-də Azərbaycan MİK "Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında" dekret qəbul etdi. Latın qrafikalı əlifbaya tam keçid 1929-cu ildə reallaşdı.

**2 iyul 1953** – Əməkdar artist Tofiq Əşrəf oğlu Qarayev (1953 – 26.10.2013) Ağdamda doğulub. Ağdam Dövlət Dram Teatrının aktyoru olub.

**2 iyul 1953** – Əməkdar artist, müğənni Məhəbbət Allahverdi oğlu Kazımov (1953 – 27.1.2014) Laçın rayonunun Çorman kəndində doğulub. "Dan ulduzu" ansamblının solisti olub.

### Dünya

**30 iyun 1789** – Fransız rəssamı Horas Verne (Horace Emile Jean Vernet; 1789-1863) anadan olub. Müharibə mövzusunda tabloların müəllifi və portret ustası kimi tanınıb.

**30 iyun 1911** – Polyak şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1980) Çeslav Miloş (Czeslaw Milosz; 1911-2004) anadan olub.

**30 iyun 1918** – Amerika aktrisası, "Oskar" mükafatçısı Süzen Heyuord (Susan Hayward, əsl adı Edythe Marrenner; 1918-1975) anadan olub.

**1 iyul 1646** - Alman idealist filosofu, tarixçi, dilçi və riyaziyyatçı Qotfrid Vilhelm Leybnis (Gottfried Wilhelm Leibniz; 1646-1716) anadan olub.

**1 iyul 1804** – Fransız yazıçısı Jorj Sand (George Sand (əsl adı: Amandina Avrora Düpen – Amantine-Aurore-Lucile Dupin de Francueil); 1804-1876) anadan olub. Romanları: "Roz və Blanş", "İndiana", "Konsuelo" və s.

**1 iyul 1902** – Amerika rejissoru Vilyam Vayler (William Wyler; 1902-1981) anadan olub. "Roma tətili", "Həyatımın ən yaxşı illəri" və s. filmləri çəkib, üç dəfə "Oskar"a layiq görülüb.

**1 iyul 1909** – Gürcü aktyoru, SSRİ Xalq artisti Serqo Zakariadze (1909-1971) Bakıda doğulub. "Keto və Kote", "Əsgər atası" və s. filmlərdə çəkilib.

**2 iyul 1877** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1946) Herman Hesse (Hermann Hesse; 1877-1962) anadan olub. Əsərləri: "Təkər altında", "Çöl canavarı", "Şərq ölkəsinə ziyarət", "Muncuq oyunu" və s.

**2 iyul 1923** – Polyak şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1996) Vislava Şimborska (Wislawa Szymborska; 1923 – 1.2.2012) anadan olub. "Son və əvvəl", "Yüz ..." və s. kitabların müəllifidir.

**Hazırladı: Vüqar ORXAN**

# Milli Kitabxana Silahlı Qüvvələr Günü ilə bağlı sərgi təqdim edib

Əsası 1918-ci ilin 26 iyununda qoyulmuş Azərbaycan Ordusunun ənənələri müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir. Bu isə ümummilli liderimiz Heydər Əliyevin ciddi səyləri nəticəsində mümkün olub. Ulu öndərin rəhbərliyi altında ölkəmizdə mütəşəkkil ordu quruculuğunun təməli qoyulub.




Ordu quruculuğu prosesini layiqincə davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz 2020-ci ilin Vətən müharibəsində tarixi Zəfər qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi. Bu il Silahlı Qüvvələri Gününü müzəffər Ordumuzun bayramı kimi qeyd edirik.

Bu münasibətlə Milli Kitabxananın əməkdaşları tərəfindən "26 İyun – Azərbaycan Silahlı Qüvvələr Günü" adlı virtual sərgi hazırlanıb. Virtual sərgidə Azərbaycanın görkəmli şəxsiyyətlərinin Milli Ordumuz ilə bağlı fikirləri, fotolar, mövzu ilə əlaqədar kitab və məqalələr nümayiş olunur.

# İstiqlal Muzeyinə virtual ekskursiya

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə məktəblilər üçün Azərbaycan İstiqlal Muzeyinə virtual ekskursiya təşkil edib.

"Zoom" platforması üzərindən reallaşan virtual ekskursiyada Bakı şəhəri 95 saylı tam orta məktəbin şagirdləri iştirak ediblər.

Görüş çərçivəsində bələdçi məktəblilərə muzeyin zallarında nümayiş olunan Azərbaycan Respublikasının dövlət atributları, xanlıqlar dövrü, XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali və Cənubi Azərbaycanda baş vermiş hadisələr, Azərbaycanın repressiya və II Dünya müharibəsi illərində tarixi, Qarabağ müharibəsi, 20 Yanvar faciəsinə və respublikamızın müstəqillik dövrünə aid eksponatlar, eləcə də Azərbaycan Milli Ordusunun qurucularından biri, Cümhuriyyəti (1918-1920) hərbi naziri, general Səməd bəy Mehmandarov haqqında ətraflı məlumat verib.

İstiqlal Muzeyinin əməkdaşı muzey fondunda ümumilikdə 20 minə yaxın eksponat olduğunu və bura nadir sənədlər, fotoşəkillər, numizmatik kolleksiyalar, bədii əsərlər və digər əşyaların daxil olduğunu qeyd edib.

# Ankarada türkdilli respublikaların müstəqilliyinin 30 illiyi münasibətilə konsert




Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqilliyinin 30-cu ildönümü ilə bağlı ilin əvvəlindən başlatdığı silsilə tədbirləri davam etdirir.

İyunun 24-də Ankarada TÜRKSOY və Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı, eləcə də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan aidiyyəti nazirliklərinin dəstəyi və beş ölkənin sənətçilərinin iştirakı ilə "Türk dünyası xalq melodiyaları" adlı konsert proqramı təqdim edildi.

Türkiyə Prezidenti Administrasiyası Simfonik Orkestri salonunda reallaşan konsert pandemiya səbəbindən məhdud iştirakçı sayı ilə təşkil edilmiş, eyni zamanda beş respublikanın musiqi kollektivləri proqrama virtual formatda qoşulmuşdu.

Konsertdən öncə TÜRKSOY-un Baş katibi Düsen Kaseinov çıxış etdi. O, türk cümhuriyyətlərinin müstəqilliyini bərpa etməsindən sonra qurulan ilk əməkdaşlıq təşkilatı olan TÜRKSOY-un üzv ölkələr arasında əlaqələrin inkişafına əhəmiyyətli töhfələr verdiyini bildirdi.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Özgül Özkan Yavuz çıxışında qardaş cümhuriyyətlərin müstəqilliyinin 30-cu ildönümünü Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Ankara Türk Dünyası Musiqi Ansamblı və Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistanın xalq çalğı alətləri orkestrlərinin birgə konserti ilə qeyd etməkdən məmnun olduqlarını bildirdi.

Tanınmış dirijorlar Ağaverdi Paşayev (Azərbaycan), Abılay Tilepbergen (Qazaxıstan), İrina Suerkulova, Rısbek Jumakunov (Qırğızıstan), Firuza Abdurahimova (Özbəkistan), Guvançmuhammed Saparaliyev (Türkmənistan), Cem Gürdalın (Türkiyə) idarəsi ilə türksoylu xalqların bir-birindən əsrarəngiz mahnıları səsləndi. Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi altında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri türk bəstəkarı Sadettin Kaynakın "İncecikten bir kar yağar" adlı əsərini (solist Lalə İbrahimova) səsləndirdi.

Konsertdən sonra Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqilliyinin 30-cu ildönümünə həsr edilən fotosərgiyə baxış keçirildi.

**Mehparə SULTANOVA**
**Ankara**

# Azərbaycanın işgüzar turizm imkanları İstanbul sərgisində

## Qarabağ yeni turizm istiqaməti kimi xüsusi maraq doğurub

Türkiyənin İstanbul şəhərində iyunun 28-də başlayan "ACE of MİCE" işgüzar turizm sərgisində Azərbaycan milli stendlə təmsil olunur.

Dövlət Turizm Agentliyindən bildirilib ki, sərginin keçirildiyi İstanbul Konqres Mərkəzində xüsusi bannerlər vasitəsilə Azərbaycanın turizm imkanları ziyarətçilərə nümayiş etdirilir. Yeni turizm destinasiyası olaraq təqdim olunan Qarabağa xüsusi maraq müşahidə olunub. Azərbaycan stendini ziyarət edən İstanbul Ticarət Palatasının rəhbəri Şekib Avdagiç işğaldan azad edilmiş Şuşaya yaxın zamanda səfər etmək niyyətində olduqlarını deyib.

Tədbir çərçivəsində təşkil olunmuş ikitərəfli görüşlər zamanı Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov Azərbaycan və Türkiyə arasında turizm əlaqələrinin perspektivlərindən danışıb.




Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid "Pandemiyadan sonra turizm və işgüzar tədbirlər sənayesinin gələcəyi" mövzusunda təşkil olunan panel görüşündə iştirak edib.

Azərbaycan Konqreslər Bürosunun direktoru Sevda Əliyeva "Limitsiz turizm: turizm potensialının inkişaf etdirilməsində Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın müsbət nəticələri" mövzusunda təşkil olunmuş panel görüşündə qarşılıqlı məlumat və təcrübə mübadiləsinin vacibliyindən danışıb.

Qeyd edək ki, "ACE of MİCE" turizm sərgisi 30 iyunda başa çatacaq.

Dünyanın üçüncü böyük konqres, toplantı və tədbir sərgisi olan "ACE of MİCE" turizm sərgisi 2014-cü ildən etibarən "Türk Hava Yolları" (Turkish Airlines) şirkəti tərəfindən təşkil olunur. 200 stendin təmsil olunduğu sərgidə 11 əsas mövzu üzrə panel iclaslarında pandemiyadan sonra işgüzar turizm sənayesinin gələcəyinə dair çıxışlar edilib.

# "Əmman, 100 illik yürüş"

İçərişəhərdəki Bakı Fotoqrafiya Evi tarixi foto həvəskarlarını İordaniya dövlətinin yaradılmasının 100 illiyinə həsr olunan "Əmman, 100 illik yürüş" adlı fotosərgiyə dəvət edir.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib ki, iyunun 30-da açılışı olacaq sərgi İordaniya Haşimilər Krallığının Azərbaycandakı Səfirliyi və "İçərişəhər" İncəsənət Muzeyi tərəfindən təşkil edilib.

İyulun 4-dək davam edəcək sərgidə Əmman şəhərinin yüz ildən bəri tarixi inkişafını tərənnüm edən 40 ədəd fotoşəkil nümayiş olunacaq. Sərgidə həmçinin İordaniya paytaxtının bir çox fərqli memarlıq və tarixi abidələrinin əks olunduğu fotolar da təqdim ediləcək.

# Türkiyə tarixinin ən böyük layihəsi

## "Kanal İstanbul"un təməli atıldı




Türkiyə tarixinin, eləcə də dünyanın ən möhtəşəm layihələrindən olan "Kanal İstanbul" marşrutu üzərində inşa ediləcək ilk "Sazlıdərə" körpüsünün təməli qoyulub. İyunun 26-da keçirilən mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak edib.

Türkiyə Prezidenti bildirib ki, dünyanın ən çox istifadə edilən İstanbul boğazından 1930-cu illərdə əgər ildə 3 min gəmi keçirdisə, bu gün bu rəqəm 45 minə çatıb. 2050-ci ilə kimi bu rəqəmin 78 minə çatacağı ehtimal edilir. Bundan başqa, hər il gəmilərin istər sərnişin, istərsə də yükdaşıma gücü artmaqdadır. "Kanal İstanbul" bu yüklənməni azaltmağa imkan verəcək.

Son 19 il ərzində Türkiyədə həyata keçirilən müxtəlif layihələr barədə danışan Rəcəb Tayyib Ərdoğan buna qarşı çıxanların olmasına baxmayaraq, hər layihənin layiqincə başa çatdırıldığını vurğulayıb. Sonra layihənin ilk körpüsünün təməli atılıb.

Qara dəniz və Mərmərə dənizini birləşdirəcək Türkiyənin su yolu layihəsi olan "Kanal İstanbul"un ilk körpüsünün ümumi uzunluğu 1618 metr təşkil edəcək. Platforma eni 46 metr nəzərdə tutulan körpünün qüllələrinin hündürlüyü isə 196 metrədək yüksələcək.

İlk dəfə 2011-ci il aprelin 27-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən ictimaiyyətə təqdim edilən, İstanbulu içindən iki dəniz keçən bir şəhərə çevirəcək layihə çərçivəsində altı körpü inşa ediləcək. Ümumi büdcə dəyəri 15 milyard dollar olaraq hesablanan "Kanal İstanbul"un hər iki tərəfində hər biri 250 min ailə üçün nəzərdə tutulan iki şəhərin tikilməsi də nəzərdə tutulur.

Altı il sürən layihə çalışmalarında 200-ə yaxın alim və mütəxəssis iştirak edib.

# "Filosof oxuyarkən" 7,7 milyon avroya satılıb

## İnventarizasiya zamanı tapılmışdı

Fransalı rəssam Jan-Onore Fraqonarın (1732-1806) rəsm əsəri Eperne hərrac evində 7,68 milyon avroya satılıb.

Söhbət bu ilin martında yerli departamentin xüsusi mənzillərindən birində inventarizasiya zamanı tapılan "Filosof oxuyarkən" rəsmindən gedir. Oval formalı əsər rəssamın dostu miniatürçü Pier Adolf Holla məxsus olub, ancaq son iki yüz ildə heç kimin yadına düşməyib.

Son yüz ildə əsər həmin ailənin nümayəndələri tərəfindən saxlanılırdı. Ancaq rəsm auksionçu Antuan Petitə təqdim olunmayınca onun dəyəri barədə heç kim bilməyib. Auksionçu rəsmin əks tərəfində müəllifin karandaşla öz adını yazdığını görəndən sonra əsərin kim tərəfindən çəkildiyi məlum olub.

**CAVİD**

# Antarktidadakı göl niyə yoxa çıxıb?

Şərqi Antarktidada yerləşən Eymer şelf buzlağının peykdən çəkilmiş şəkillərini analiz edən alimlər aşkar ediblər ki, 2019-cu ilin qışında onun səthində görünən göl yoxa çıxıb. Həmin gölə yay vaxtı qar suyu yığılırdı. Tədqiqatçıların fikrincə, su kütləsi buz qatını deşərək okeana axıb. Araşdırmanın nəticələri "Geophysical Research Letters" nəşrində dərc edilib.



NASA peykinin 2020-ci ildə çəkdiyi şəkillərdə gölü görməyən bir qrup alim baş verənlərin mənzərəsini bərpa etməyi qərara alıblar. Radiolokasiya şəkillərinin analizi göstərib ki, 2019-cu ilin iyununda həcmi 600-750 milyon kubmetr su olan gölün yerində kraterə bənzəyən, sahəsi təqribən 11 kvadratkilometr olan, səthi parçalanmış buzlarla örtülü çökəklik qalıb. Alimlərin "buz vadisi" adlandırdığı bu yerə 2020-ci ilin yay mövsümündə yenidən qar suyu toplanaraq göl yaranıb. Lakin bu, əvvəlkindən xeyli dərəcədə kiçikdir.

Hidroyarılma prosesi kiçik şelf buzlaqlarının dağılmasına tez-tez səbəb olur. Lakin belə miqyasda – qalınlığı təqribən 1400 metr olan Eymer buzlağındakı hidroyarılma ilə alimlər ilk dəfə qarşılaşır.

Son on ildə Antarktidada havanın temperaturunun yüksəlməsi ilə bəzi şelf buzlaqlarında güclü ərimə baş verir və proqnoz modelləri göstərir ki, bu tendensiya davam edəcək. Tədqiqatçıların fikrincə, şelf buzlaqlarının səthindəki qar suları onların dağılmasına səbəb olursa, sonda bu, dəniz səviyyəsinin artmasına gətirib çıxaracaq.

# Gürcüstanda Nizaminin 880 illiyi ilə bağlı rəsm müsabiqəsi

Azərbaycan Respublikasının Gürcüstandakı Səfirliyi dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı rəsm müsabiqəsi elan edib.

"Nizami Gəncəvi İli" çərçivəsində elan olunan müsabiqəyə Nizami Gəncəviyə və onun əsərlərinə həsr olunan rəsm əsərləri qəbul olunur. Qaliblər səfirlik tərəfindən diplom və hədiyyələrlə, qalan müsabiqə iştirakçıları sertifikatla təltif olunacaqlar.

Səfirlikdən bildirilib ki, müsabiqədə 15 yaşdan yuxarı Gürcüstan vətəndaşları iştirak edə bilərlər. Nəticələr iyulun 6-da açıqlanacaq.

İştirak etmək istəyən şəxslərdən mövzu üzrə rəsm əsərlərini iyulun 4-dək səfirliyə (Tbilisi şəhəri, Vaxtanq Qorqasali küçəsi 4) təqdim edə bilərlər.

Ətraflı məlumat üçün səfirliyin (+995 32) 224-30-04 nömrəli telefonu ilə əlaqə saxlamaq olar.

# Dövlət Tərcümə Mərkəzi Ukrayna Kitab İnstitutu ilə əməkdaşlıq edəcək

Azərbaycan Dövlət Tərcümə Mərkəzi ilə Ukrayna Kitab İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanıb.




Mərkəzdən bildirilib ki, memorandumda ölkələrarası ədəbi-mədəni əlaqələrin genişləndirilməsi istiqamətində əməkdaşlıq – Azərbaycan və Ukrayna ədəbiyyatlarının qarşılıqlı mübadilə çərçivəsində tərcüməsi, nəşri, kitablara dair təqdimatların, dəyirmi masaların, onlayn konfransların keçirilməsi, nəşrlərin geniş oxucu auditoriyasına çatdırılması, ölkələrin mərkəzi kitabxanalarına və universitetlərinə yerləşdirilməsi kimi məsələlər nəzərdə tutulur.

Ukrayna Kitab İnstitutu ölkənin Mədəniyyət və İnformasiya Siyasəti Nazirliyinin nəzdində tərcümə işinin təşviqi, Ukrayna ədəbiyyatının xaricdə yayımı və təbliği istiqamətində fəaliyyət göstərən dövlət qurumudur.

Memorandum Azərbaycan Dövlət Tərcümə Mərkəzi İdarə Heyətinin sədri Afaq Məsud və Ukrayna Kitab İnstitutunun rəhbəri Oleksandra Koval tərəfindən imzalanıb.

Türk dünyası

# Başqırd libaslı matryoşkadan yaxşı hədiyyə?

Başqırdıstanda iyul ayında keçiriləcək VI Dünya Folkloriadasına hazırlıqlar sona çatmaq üzrədir. Ufadakı "Agidel" bədii sənət müəssisəsi beynəlxalq tədbir üçün başqırd milli geyimində matryoşkalar istehsal edib. Əl ilə boyanmış təxminən iki min oyuncaq iştirakçılara suvenir olaraq hədiyyə ediləcək. Matryoşkalar təkcə başqırd milli libaslarında deyil, həm də epos qəhrəmanları, məşhur pəhləvanların obrazında da bəzədilir.



Milli başqırd geyimli matryoşka ideyası təsadüfən yaranmayıb. Rusiyanın ən tanınan simvollarından olan bu iç-içə qablama taxta oyuncaq insanların estetik ideallarını və mənəvi aləmini əks etdirən, həm də mədəni-maarifçi funksiyaya malik rəmzi məna daşıyır. "Agidel"in əməkdaşları bu layihəyə başlamazdan əvvəl bölgələrə səfərə çıxmış, etnoqraflarla məsləhətləşmiş, elmi ədəbiyyata müraciət etmişlər.

Etnodizayner Mira Davletova deyib: "Matryoşkalar milli başqırd geyimlərinin nə qədər müxtəlif olduğuna əyani nümunədir. Bölgələrə görə təqribi yeddi geyim kompleksi mövcuddur. Belə milli və tarixən formalaşmış geyimləri öyrənmək üçün xeyli rayonu gəzməli olduq".

# Yeni agentlik maddi irslə bağlı məsələləri tənzimləyəcək

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ölkənin Turizm və İdman Nazirliyinin nəzdində Mədəni İrs Agentliyinin fəaliyyəti və bu sahənin innovativ inkişafı ilə bağlı sərəncam imzalayıb. Agentlik maddi mədəni irs, arxeoloji və muzey obyektlərinin ölkəyə gətirilməsi və ölkədən çıxarılmasına dair bütün məsələlərin həlli üçün yaradılmış dövlət orqanı kimi fəaliyyət göstərəcək.

Ölkədəki maddi mədəni irs obyektlərinin müdafiəsi, muzeylərin fəaliyyətinin inkişafı, arxeoloji araşdırmaların dəstəklənməsi, xarici ölkələrdə Özbəkistan tarixinə dair mədəni dəyərlərin aşkarlanması kimi məsələlər yeni agentliyin səlahiyyətinə daxildir.

Özbəkistan Turizm və İdman Nazirliyinin yaydığı xəbərə görə, sərəncama müvafiq olaraq, Qaraqalpaqstanda (muxtar respublika), vilayətlərdə və Daşkənddə maddi irsi qoruyan regional idarələr yaradılacaq.

**GÜLCAHAN**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1171
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.